# QARABAĞ AZƏRBAYCANDIR!

“Əliyev özünə, mövqeyinə arxayındır, məqsədinə çatacağını bilir”



15

Səs

№ 186 (6627) 12 oktyabr 2022-ci il. Qiyməti 60 qəpik



2

## Azərbaycan - Qırğız Respublikası: dostluq münasibətlərində yeni səhifə!

# Ermənistan yenidən “quyudadır”: bu dəfə demoqrafik cəhətdən



7

“Azərbaycan təkcə döyüş meydanında deyil, həm də informasiya məkanında qələbə qazandı”



4

Növbəti ilin büdcə layihəsi iqtisadi inkişafdan xəbər verir




7



8

## “Zəfərə gedən yolun başlanğıcı - 2003-cü il”

Jurnalist vəsiqələri kimlərə şamil olunur?



6

## Şəhidlik zirvəsinə ucalan qəhrəmanlar!



10

## Anasını öldürən 15 yaşlı oğlana hökm oxundu



16

# Azərbaycan- Qırğız Respublikası: dostluq münasibətlərində yeni səhifə!



## Azərbaycan Prezidenti İlham Əliyev Qırğız Respublikasında dövlət səfərindədir

### STRATEJİ TƏRƏFDAŞLIĞA YÜKSƏLƏN MÜNASİBƏTLƏR

Azərbaycanın Orta Asiyanın türk dövlətləri ilə əlaqələri həmişə geniş olub. İstər Qazaxıstan, istər Özbəkistan, istərsə də Türkmənistanla münasibətlər məzmunca zəngin olması ilə yanaşı, həm də özünəməxsusluğu ilə seçilir. Bunun da əsas səbəbi bu dövlətlərin xalqları ilə ortaq milli-mənəvi dəyərləri bölüşməyimizdir. Bütün türk dövlətləri ilə əməkdaşlığın daim inkişaf etdirilməsi respublikamızın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri də bunu təsdiq etdi. Dövlət səfəri çərçivəsində dövlət başçıları ikitərəfli danışıqlar aparıblar və Dövlətlərarası Şuranın I iclasında iştirak ediblər. Daha sonra Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub, Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Bundan əlavə, dövlət səfəri çərçivəsində ”Qırğızıstan-Azərbaycan Dostluğu” parkının, o cümlədən Heydər Əliyev və Nizami Gəncəvi adına ümumtəhsil məktəblərinin açılışı olub. Bir sözlə, Azərbaycan Prezidentinin Qırğız Respublikasına səfəri Azərbaycanın Qırğızıstanla əməkdaşlığının gələcək illərdə də mövcud potensialdan tam istifadə üçün daha böyük addımlar atılacağını təsdiqləyir.



Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın məhdud tərkibdə iclasında bəyan edib ki, Azərbaycan-Qırğızıstan münasibətlərin belə dinamikası ondan xəbər verir ki, biz qarşılıqlı əməkdaşlıq potensialını artırmaq əzmindəyik. Qırğızıstanlı həmkarı Sadır Japarovun yarım il bundan əvvəl Azərbaycana səfərini xatırladan dövlətimizin başçısı deyib ki, bu səfər zamanı ölkələrimiz arasında imzalanan strateji tərəfdaşlıq haqqında Bəyannamə əlaqələrimizi daha yüksək səviyyəyə qaldırıb. ”Əminəm ki, mənim səfərimin yekunlarına dair əldə olunacaq razılaşmalar bir çox sahələrdə əməkdaşlığın dərinləşməsinə kömək edəcək. Siz bizim ölkələrin həm beynəlxalq arenada, həm də ticari-iqtisadi əlaqələr çərçivəsində əməkdaşlıq istiqamətlərini qeyd etdiniz. Düşünürəm ki, bu gün və sabah biz həm Sizinlə, həm nümayəndə heyətlərinin üzvləri ilə planlarımızı ətraflı müzakirə edəcək və tərəfdaşlığın möhkəmləndirilməsi yollarını müəyyənləşdirəcəyik.” - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, əmtəə dövriyyəsinin göstəriciləri qaneedici deyil. ”Lakin, fikrimcə, bizim nəzərdə tutduğumuz planlar qısa zaman kəsiyində qarşılıqlı ticarətin həcmini artırmağa imkan verəcək. Azərbaycan, həmçinin Sizin ölkədə investisiya layihələrində maraqlıdır. Biz bu gün bunu da müzakirə edərik”, - deyə Azərbaycan Prezidenti diqqətə çatdırıb.



Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycanla Qırğızıstan arasında Birinci Dövlətlərarası Şuranın məhdud tərkibdə iclasında bildirib ki, Qırğız və Azərbaycan xalqlarının dostluğu zamanın və tarixin sınağından çıxmış uzunmüddətli, etibarlı və səmimi münasibətlərə əsaslanır. Prezident Sadır Japarov vurğulayıb ki, Azərbaycan Prezidentinin dövlət səfəri qardaş ölkələrimiz arasında əsl strateji tərəfdaşlıq münasibətlərini nümayiş etdirir.

”Ölkələrimiz bu il Dostluq və əməkdaşlıq haqqında Müqavilənin 25 illiyini qeyd edib. Üç aydan sonra ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi tamam olacaq. Biz bu tarixə yaxşı nəticələrlə yaxınlaşmışıq. Bizim əməkdaşlığımız strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib”, - deyə Qırğızıstan Prezidenti bildirib.

### Azərbaycan-Qırğızıstan: tarixin sınağından çıxmış qardaşlıq münasibəti

Bəli, bu gün Azərbaycan-Qırğızıstan münasibətləri yüksələn xətlə inkişaf edir. Çünki Qırğızıstan və Azərbaycan xalqları eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malikdir. Dini və milli mənsubiyyət eyniliyi, oxşarlığı gələcək münasibətlərin inkişafında əsas kredo kimi götürülür. Hər iki ölkə SSRİ-nin tərkibində müttəfiq respublika olmuşdur. Elə həmin dövrdə də onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşmışdır. SSRİ dağıldıqdan, postsovet məkanında müstəqil dövlətlər yarandıqdan sonra bu münasibətlər daha da inkişaf etməyə başlamışdır.

Ardı Səh. 3



Əvvəli Səh. 2

Hazırda təxminən 20 mindən çox azərbaycanlı Qırğızıstan Respublikasında yaşayır. Onların əksəriyyəti bolşevik dövrünün 1930-cu illər repressiyalarında bu ölkəyə sürgün olunanlar və onların övladlarıdır. Qırğızıstandakı Azərbaycan diasporunun nümayəndələri ölkənin biznes sahəsində, iqtisadiyyatın digər sahələrində fəal iştirak edirlər. İki ölkə arasında fundamental diplomatik əlaqələrin əsası 1993-cü ildən qoyulmuşdur. 1993-cü ilin dekabrında Türkmənistanda MDB Dövlət Başçıları Şurasının iclası zamanı Azərbaycan Prezidenti Heydər Əliyevlə Qırğızıstan Prezidenti Əsgər Akayevin görüşü keçirilmişdi. Azərbaycan Prezidenti Heydər Əliyev daha sonra 1995-ci ilin avqustunda Türkdilli Dövlət Başçılarının üçüncü sammitində iştirak etmək üçün Qırğızıstana gedib və orada qırğızıstanlı həmkarı ilə görüşüb. 11 noyabr 1996-cı ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qırğızıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında protokol imzalanıb.Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan-Qırğızıstan münasibətləri daha yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin işi zamanı 2003-cü il dekabrın 10-da Qırğızıstan Prezidenti Əsgər Akayevlə görüşüb. Görüş zamanı Qırğızıstan Prezidenti Dağlıq Qarabağ probleminə toxunaraq, qeyd edib ki, biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik və bu mövqeyimizdə qalacağıq. Bundan sonra 2004-cü il iyunun 2-də Qırğızıstanın müdafiə naziri E.Topoyev Bakıda rəsmi səfərdə olub. Səfər zamanı Azərbaycan və Qırğızıstan arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalanıb. 2006-cı ilin 17 noyabrında Antalyada keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının VIII Zirvə görüşü və 3 oktyabr 2009-cu il tarixdə Naxçıvan şəhərində Türkdilli Ölkələrin Dövlət Başçılarının 9-cu Zirvə görüşü keçirilir. Hər iki zirvə görüşü ciddi bəyanatlarla yadda qalır. Zirvə görüşünün sonunda prezidentlər Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini və Türkdilli Ölkələrin Dövlət Başçılarının 9-cu Zirvə toplantısının yekunu olaraq Naxçıvan Bəyannaməsini imzalayıblar. 2013-cü ilin avqustun 15-16-da Qırğızıstan Respublikasının Prezidenti də Qəbələ şəhərində keçirilən TDƏŞ-in III Zirvə görüşündə iştirak etmişdir. Bu zirvə görüşü çərçivəsində Qırğızıstan və Azərbaycan prezidentlərinin görüşü də keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ildə Bişkekə səfəri Qırğızıstan-Azərbaycan ikitərəfli münasibətləri tarixində ən əhəmiyyətli dönüş nöqtələrindən biri olur və iki ölkə arasında iqtisadi, siyasi, elmitexniki, gömrük sahələrində əməkdaşlığa yeni təkan verir. İllərdir ki, hər iki respublika İƏT, İKT, BMT çərçivəsində əməkdaşlıq edirlər. 29 oktyabr 2004-cü ildə BMT Baş Məclisinin 59-cu sessiyasının 46-cı plenar iclasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndin Baş Məclisin gündəliyinə salınmasına dair qərar Qırğızıstan tərəfindən dəstəklənib. Qırğızıstan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyir. Bu dövlət münaqişənin həlli üçün müəyyən dövrlərdə fəallıq göstərməyə çalışıb. Belə ki, 1994-cü ilin may ayında MDB-nin vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında müqavilə də məhz Qırğızıstanın paytaxtı Bişkek şəhərində imzalanıb.Bir sözlə, diplomatik əlaqələr yarandığı gündən Qırğızıstan-Azərbaycan ikitərəfli əməkdaşlığı ənənəvi şəkildə, qarşılıqlı surətdə faydalı tərəfdaşlıq, dostluq əsasında qurulmuş və bütövlükdə siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəni və digər sahələrdə uğurla inkişaf etmişdir. Göründüyü kimi, Azərbaycan bütün digər türkdilli dövlətlərlə olduğu kimi Qırğızıstanla da geniş siyasi-iqtisadi və mədəni əlaqələrini sürətlə artırır. Hər iki ölkənin məqsədi Türk dünyasının inkişafına, siyasi və mədəni birliyinə töhfə verməkdir. Onlar belə vacib missiyanın da öhdəsindən layiqincə gəlirlər.



## Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Qırğızıstan münasibətləri

Müasir dövrdə Azərbaycan-Qırğızıstan münasibətlərinin əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider 1995-ci ilin avqustunda Türkdilli Dövlət Başçılarının III Zirvə Görüşü və "Manas" eposunun 1000 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün ilk dəfə Qırğızıstana səfər edib.Hazırda iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu il aprelin 20-də Qırğızıstan Prezidenti Sadır Japarovun ölkəmizə rəsmi səfər edib. Səfər zamanı "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb. Qeyd edək ki, bugünkü səfər Azərbaycan Respublikası Prezidentinin Qırğızıstana ilk dövlət səfəridir. Səfər zamanı iki ölkə arasında bir sıra sənədlərin, o cümlədən Müştərək İnkişaf Fondunun yaradılması ilə bağlı Sazişin imzalanması nəzərdə tutulur. Dövlətimizin başçısı, həmçinin Qırğızıstan-Azərbaycan Dostluq Parkının, Heydər Əliyev adına 20 saylı "Məktəb-Gimnaziya Təhsil-Tərbiyə Kompleksi" Ümumtəhsil müəssisəsinin, Nizami Gəncəvi adına 103 saylı orta təhsil məktəbinin açılış mərasimlərində iştirak edəcək.

Bundan əvvəl Prezident İlham Əliyev Qırğızıstana iki dəfə işgüzar səfər edib. 2016-cı ilin sentyabrında həyata keçirilmiş səfər zamanı Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında və 2018-ci ilin sentyabrında isə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Çolpon-Ata şəhərində keçirilmiş VI Zirvə Görüşündə iştirak edib. Bu il iki ölkələr arasında strateji tərəfdaşlıq Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanmış sənədlər məzmun baxımından əhatəli və hər iki tərəfin əlaqələrin daha da inkişafında maraqlı olduğunu göstərdi. İmzalanan sənədlərdən ən əsası "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə"dir. Azərbaycan Prezidenti İlham Əliyev həmin mərasimdə bildirmişdir: "Bu sənəd iki dövlət arasındakı münasibətləri keyfiyyətcə yeni səviyyəyə yüksəldir. Strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir və hər iki dövləti məhz strateji xarakterli əməkdaşlığa kökləyir. "Bizim münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatır. Bu, çox əlamətdar hadisədir, çünki qarşılıqlı fəaliyyətdə olduğumuz 29 il ərzində biz, əlbəttə, bir sıra istiqamətlər üzrə fəal işləmişik, lakin münasibətlərimiz bu səviyyədə olmayıb. Strateji tərəfdaşlıq həm böyük üstünlüklər, həm də böyük məsuliyyət deməkdir". Bəli, bütün bunlar onu göstərir ki, Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən Qırğızıstanla əməkdaşlığın geniş perspektivləri var və gələcək illərdə mövcud potensialdan tam istifadə üçün daha böyük addımlar atılacaq. Göründüyü kimi, Azərbaycan bütün digər türkdilli dövlətlərlə olduğu kimi, Qırğızıstanla da geniş siyasi-iqtisadi və mədəni əlaqələrini sürətlə artırır. Hər iki ölkənin məqsədi Türk dünyasının inkişafına, siyasi və mədəni birliyinə töhfə verməkdir və ölkələrimiz belə vacib missiyanın da öhdəsindən layiqincə gəlirlər. Bir sözlə, Prezident İlham Əliyevin Qırğız Respublikasına səfəri, Prezident Sadır Japarov ilə görüş, imzalanan sənədlər və liderlərin səsləndirdiyi fikirlər iki ölkə münasibətlərində dərin əməkdaşlığa əsaslanan yeni mərhələnin əsasının qoyulduğunu deməyə əsas verir. Dövlət başçımızın dediyi kimi: "Strateji tərəfdaşlıq həm böyük üstünlüklər, həm də böyük məsuliyyət deməkdir".

**RƏFİQƏ KAMALQIZI**



# ”Azərbaycan təkcə döyüş meydanında deyil, həm də informasiya məkanında qələbə qazandı”



**Azərbaycan 2020-ci ilin payızında hibrid müharibənin bütün istiqamətlərində - siyasi, diplomatik müstəvidə və informasiya məkanında qələbə qazandı. Bu fikirləri AZƏRTAC-ın kollektivi ilə görüşdə TASS agentliyinin baş direktorunun birinci müavini, Rusiya Federasiyasının Əməkdar Mədəniyyət İşçisi, Əməkdar jurnalist Mixail Qusman deyib.**

”Mən Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin təkcə müharibənin düzgün strategiyasını müəyyənləşdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı, siyasi-diplomatik strategiyanı həyata keçirən dövlət başçısı kimi deyil, həm də informasiya müharibəsində Ali Baş Komandan kimi mühüm rolunu qeyd etmək istəyirəm. O, 44 gün ərzində ən müxtəlif kütləvi informasiya vasitələrinə, səhv etmirəmsə, 35 müsahibə verib. Azərbaycan Prezidenti bütün dünya ilə danışırdı və bu, onun şüurlu seçimi idi. O, haqq sözünün, dəqiq informasiyanın çatdırılmasının vacibliyini başa düşürdü, çünki onun müsahibəsi o xəbəri çatdıran ən nüfuzlu profilin informasiya ismarışları idi ki, ondan başqa heç kim bu xəbəri formalaşdıra və dürüst ifadə edə, belə dəqiq çatdıra bilməzdi”, - deyə Mixail Qusman vurğulayıb.

Bununla bağlı o əlavə edib ki, müharibənin hərbi hissəsi başa çatıb və xoşbəxtlikdən Azərbaycanın Qələbəsi ilə yekunlaşıb. Lakin informasiya müharibəsi və ümumiyyətlə informasiya müharibələri heç vaxt bitmir. Onlar səngiyir, qapalı formata keçir, digər forma alır, lakin mahiyyətcə, həmişə gedir. Bu mənada əgər hərbçilər müharibədən sonra kazarmalara qayıda bilirlərsə, informasiya müharibəsinin iştirakçıları isə ”döyüş meydanı”nı heç vaxt tərk etmirlər. Mixail Qusmanın sözlərinə görə, bu mənada xüsusi elitanı xəbər hazırlayıb yayan jurnalistlər təşkil edir. Onlar medianın daim öndə olan ”xüsusi təyinatlılarıdır”. Onların vəzifəsi təkcə rəqibin hücumlarını dəf etmək deyil, həm də özlərinin hücuma keçməsidir.

İnformasiya agentliklərinin qarşısındakı müasir çağırışlardan danışan TASS agentliyinin baş direktorunun birinci müavini deyib ki, mütəxəssislərin proqnozlarına əsasən, kütləvi informasiyanın rəqəmsal mənbələri öz inkişafına görə, məhz gəlirlərin həcminə görə ənənəvi mənbələrini 2030-cu ilədək üstələməli idi. Lakin 2020-ci ildə dünya rəqəmsal kütləvi informasiya vasitələrinin gəlirləri ənənəvi medianı 15 faiz üstələyib. Eyni zamanda, ənənəvi KİV öz aktuallığını itirməyib. Mixail Qusman buna ən parlaq misal kimi, rəqəmsal texnologiyalarla bağlı problemi olmayan, lakin insanların hələ də çap nəşrləri aldığı və oxuduğu Yaponiya və ABŞ-ı göstərib. Bunu auditoriyanın vərdişi və ənənəvi KİV-in yoxlanılmış informasiya qismində qəbul edilməsi ilə əlaqələndirərək əminliyini bildirib ki, peşəkarlığa, keyfiyyətə, öz işinə görə məsuliyyətə həmişə tələbat olacaq.

Mixail Qusman, həmçinin qeyd edib ki, statistikaya görə, müxtəlif növ xəbər ilə - siyasi, sosial, mədəniyyət xəbərləri ilə maraqlanan insanların 70 faizi onu öz telefonları vasitəsilə alır. Odur ki, aparıcı ənənəvi agentliklər texnologiyalara üz tutmalıdırlar və artıq üz tuturlar. Bu agentliklər informasiya istehlakçılarına daha yaxın olmalıdırlar, onların dəqiq, hərtərəfli, keyfiyyətli informasiyaya əlçatanlığını asanlaşdırmalıdırlar.

Rusiyanın Əməkdar jurnalisti, həmçinin feyk xəbərlər mövzusuna toxunaraq qeyd edib ki, bu termin altında müəyyən təsəvvür formalaşdıran informasiyanın cəmiyyətə şüurlu şəkildə yeridilməsi başa düşülməlidir. Bu proses informasiya müharibələrinin bir hissəsidir və onun arxasında bütöv dövlətlər dayana bilər.

Rusiya jurnalistinin sözlərinə görə, belə hallarda xəbər agentlikləri qarşısında dilemma durur: ”Müasir informasiya agentlikləri bu gün çətin yolayrıcındadır - onlar bir tərəfdən informasiyanı birinci ötürmək məqsədilə sürətə, qabaqlamağa işləyirlər, digər tərəfdən də yalan xəbərin girovuna çevrilməmək çox mühümdür. Burada sual yaranır: sürət və mötəbərliyi necə birləşdirməli? Axı dezinformasiyanın müəyyən edilməsi bəzən çox vaxt aparır. Fikrimcə, bu gün informasiyanın dəqiqliyi və mötəbərliyi sürətdən daha çox vacibdir”.

”Dezinformasiyaya qarşı mübarizə peşəkar agentliklərin birinci vəzifəsidir və burada isə silah dəqiq, mötəbər informasiyadır. Bundan güclü silah yoxdur!”, - deyə Mixail Qusman vurğulayıb.

# Tehran İrəvana qarşı çıxdı



Nikol Paşinyanın Ermənistanın sərhədlərinə xarici müşahidəçiləri yerləşdirməsi ideyası İranı qıcıqlandırdı - regiona ona aid olmayan ölkələr qarışa bilməzlər Ermənistanın öz ərazilərində beynəlxalq müşahidəçilər qruplarını yerləşdirməsi cəhdləri İranın etirazı ilə nəticələnib. Belə ki, rəsmi Tehran İrəvanın bu kimi planının yolverilməz olduğunu bəyan edib. SİA xəbər verir ki, bu haqda İranın Mehr xəbər agentliyi yazır.

Nəşr bildirir ki, regionun problemlərini məhz regionda olan ölkələr həll etməlidirlər və bu həll yollarında regiona ona aid olmayan xarici dövlətləri cəlb etmək, regionun qapılarını açmaq doğru seçim deyil.

**Tehran Paşinyanın ideyasının baş tutmayacağına işarə edib**

Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin sərhədyanı ərazilərinə fransız və amerikalı müşahidəçilərin yerləşdirilməsi ilə bağlı müraciət edib. Lakin belə olan halda region ölkələrindən olan İran dərhal buna reaksiya göstərib. Daha dəqiq desək, rəsmi Tehranın Nikol Paşinyanın sözügedən ideyasına əks-reaksiyası artıq bu mövzunun da baş tutmayacağı siqnallarını verir. Ən maraqlısı isə budur ki, İran son dövrlərdə ilk dəfədir ki, Ermənistanın hər hansı təklifinə bu cür sərt və neqativ münasibət göstərib.

***Rövşən***

# Avropanın nüfuzlu nəşri: ”Müharibənin acı mirası: Azərbaycanda kütləvi məzarlıq aşkarlanıb”




Avropada böyük oxucu auditoriyasına malik ”Eureporter” nəşrində Xocavənd rayonunun Edilli kəndində aşkarlanan Birinci Qarabağ müharibəsinə aid kütləvi məzarlığa dair məqalə dərc olunub. Belə ki, siyasət üzrə redaktor Nik Pauell ”Müharibənin acı mirası: Azərbaycanda kütləvi məzarlıq aşkarlanıb” başlıqlı məqalədə müharibənin nəticələrinin hələ öz ağrı-acısı ilə davam etdiyi qeyd edilir. Müəllif yazır ki, iki il bundan öncə Azərbaycan Ermənistanla münaqişədə əraziləri azad etsə də, yeni kütləvi məzarlığın aşkarlanması Birinci Qarabağ müharibəsinin ağrılarını bir daha yada salır. Lakin bütün bunlara baxmayaraq, sülh yolu ilə həll üçün diplomatik səylər davam etdirilir.

Məqalədə qeyd olunub ki, Azərbaycanın Qarabağ regionunda yerləşən Edilli kəndində 12 əsgərin kütləvi məzarlığı barədə xəbər və görüntülər mətbuata çıxdı. Aşkarlanan qalıqların kəllə sümüklərində güllə deşikləri və onların əl-ayağının bağlı olması onların güllələnərək amansızcasına qətlə yetirildiyini göstərir. Azərbaycanın əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının rəsmisi Namiq Əfəndiyev bildirib ki, 1994-cü ildə bitmiş Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş vətəndaşların tapılması məqsədilə fevral ayından etibarən bu kənd ərazisində qazıntı işləri aparılır. İndiyədək ərazidə 25 insan qalığı aşkar edilib və qazıntılar davam etdirilir.

Məqalədə, həmçinin diqqətə çatdırılır ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Edillidə tapılmış kütləvi məzarlıqla əlaqədar özünün tviter səhifəsində bildirib ki, Edilli kəndinin Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən azərbaycanlı girovlar üçün həbs düşərgəsi (konslager) kimi istifadə edilib. O əlavə edib ki, bu kənddəki kütləvi məzarlığın aşkarlanmasına baxmayaraq, hələ də 4000-dək azərbaycanlı hərbçi və mülki şəxsin taleyi naməlum olaraq qalır və Ermənistan itkin düşmüş şəxslərlə bağlı kütləvi məzarlıqların yerlərini göstərməkdən imtina edir.

# “Jurnalist vəsiqəsi şərəf göstəricisidir”

**“Jurnalist vəsiqəsi haqqında rəsmi qaydaların qüvvəyə minməsi medianın sistemləşdirilməsi yönümündə mühüm bir addımdır. Bunu Azərbaycanda media sektorunda başlanmış və dərinləşməkdə olan islahatların təzahürü kimi də dəyərləndirmək olar. Həm də bu mütərəqqi bir islahatdır. Mediada bir sistemin formalaşması və şəffaflığın təmin olunması yönümündə təsirli bir alətdir. Bu sözləri SİA-ya açıqlamasında ”Bakı-xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev deyib.**

Onun sözlərinə görə, jurnalist vəsiqəsi şərəf göstəricisidir: ”Hətta MEDİA-nın vəsiqələrinə qədər bütün jurnalistlər mənsub olduqları media orqanının jurnalist vəsiqəsini böyük hörmət və şərəflə daşıyıblar. Yeni ”Media haqqında” qanun qəbul olunduqdan sonra da ayrı-ayrı redaksiya və media orqanlarının öz əməkdaşlarına özünün məsləhət bildiyi formada vəsiqənin verilməsi hüququna heç bir maneəçilik törətmədən dövlət orqanı MEDİA - nın vəsiqələrinə rəsmi status verildi.




Aydın Quliyev sözlərinə belə davam edib: ”Bu gün media orqanları öz əməkdaşlarına vəsiqə verməkdə müstəqil olduqları kimi, istəyən jurnalist müvafiq reyestrdə qeydiyyatdan keçməklə MEDİA agentliyinin vəsiqəsinə sahib ola, yaxud onu daşımaq hüququ əldə edə bilər.

Qanunda da çox aydın şəkildə göstərilir ki, MEDİA agentliyinin jurnalist vəsiqəsini daşımayan şəxsə jurnalistika fəaliyyəti heç də qadağan olunmur. Bu vəsiqəni daşımadan da şəxslər jurnalist kimi fəaliyyət göstərə bilər. Qanunda açıq şəkildə qeyd olunub ki, MEDİA agentliyinin vəsiqəsini daşımaq kiminsə jurnalist olub-olmadığını sübut etmək məqsədi daşımır. Bu, sadəcə olaraq, həmin şəxsin media reyestrində göstəricilərinin həqiqətən qeydə alındığını göstərən bir sənəddir. Jurnalist vəsiqəsi həm özünün tərtibatına, həm də səlahiyyətlərinə görə beynəlxalq standartlara uyğundur. Onun müddətinin 3 il müəyyənləşdirilməsi də optimal bir müddətdir.

Mən, Azərbaycan jurnalistlərini Müstəqil Azərbaycan dövlətinin tarixində dövlət adından veriləcək ilk vəsiqələrin daşıyıcısı olacaqları münasibətləri ilə təbrik etmək istəyirəm”.

***Ayşən Vəli***

# Praqa görüşünün detalları və GÖZLƏNTİLƏR

**Praqa görüşü bütün dünanın diqqət mərkəzindədir və bu görüşün detalları, eləcə də nəticələri təkcə regon ölkələri arasında deyil, ümumilikdə qlobal səviyyədə maraq doğurur. Ən çox marağa səbəb olan isə Praqada qəbul olunan ortaq bəyanatın gərginliyə son qoyacağı ilə bağlıdır. Ona görə ki, bölgədə gərginliyin aradan qaldırılması, təhlükəsizliyin və sülhün təmin olunması məsələsi günümüzün ən aktual məsələsidir.**

Bildiyimiz kimi, bəyanata görə, Ermənistan və Azərbaycan qarşılıqlı olaraq bir-birlərinin ərazi bütövlüklərini tanıyıblar. Hər iki tərəfin bir-birinin ərazi bütövlüyünü tanıması çox ciddi bir məqamdır. Əslində, bu o deməkdir ki, "Dağlıq Qarabağın statusunu müəyyənləşdirən referendum" tələbindən İrəvan rəsmi şəkildə imtina edir, özü də 30 ildən sonra, əsrin üçdə birinə yaxın müddətdə buna çalışmasına baxmayaraq. Yəni, aydın olur ki, bəyanata görə Ermənistan öz iddialarından, Qarabağla bağlı iddialarından imtina edir və bu məqam özü də Azərbaycanın maraqlarına xiddmət edir.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi, müdrikliyi, siyasi iradəsi ilə Azərbacanın davamlı olaraq diplomatik qələbələr qazanması artıq ənənə halını alıb və bu dəfə də Praqada imzalanan bəyanat növbəti diplomatik qələbəmizdən xəbər verir, hansıki bütün dünya da bunun şahidi oldu. Şahidi oldu ki, Azərbaycanın mövqeyi dəyişilən deyil və haqlı mövqedir. Əks halda, hadisələr, eləcə də bəyanat Azərbaycan tərəfinin istədiyi şəkildə olmazdı. Bəli, Azərbaycan öz maraqlarına uyğun nəticələrə nail olmaqdadır və nikbin gözləntilərimizin olmasına haqqımız çatır.

Praqadakı ortaq bəyanatın daha bir vacib, eləcə də diqqət çəkən bəndi Avropa İttifaqının mülki missiyasını Ermənistanın Azərbaycanla sərhəddinə göndərəcəyidir. Hətta Ermənistanın baş naziri Nikol Paşinyan və Fransa prezidenti Emmanuel Makron istəyirdilər ki, bu komissiya hər iki tərəfdə fəaliyyət göstərsin. Təbii ki, bu başadüşüləndir, çünki Fransanın tarixən ermənipərəst mövqedə olduğu sirr deyil. Fransa bu mövqeyini gizlətməyib də və hər zaman rəsmi Paris Azərbacana qarşı təzyiq cəhdləri etməyə çalışıb. Bu təkcə Emmanuel Makronun mövqeyində özünü göstərməyib və Fransanın sabiq prezidenti Nikola Sarkozinin Ermənistanı öz ölkəsinin "dostu və kiçik bacısı" adlandırması rəsmi Parisin hər zaman hansı mövqedə olduğunu ortaya qoyur. Bu dəfə də Praqada Fransa prezidenti Ermənistanın nələrə isə nail olması üçün çox çalışdı, gizli qapılar arxasında Makron öz ölkəsinin "dostu və kiçik baçısı" ilə Azərbaycana qarşı hiyləgər planlar hazırladı, amma ölkə rəhbərimizin, Azərbaycan Prezidentinin, cənab İlham Əliyevin qətiyyətli mövqeyi, siyasi iradəsi ilə onların bütün ciddi cəhdləri netrallaşdırıldı və onların hiyləgər planları işə keçmədi. Fransa-Ermənistan tandemi bu dəfə də iflasa uğradı və ölkə başçımız yenə də öz prinsipial mövqeyi, müdrikliyi ilə diplomatik qələbəyə imza atdı.





Praqada olan müzakirələrin yekunu olaraq, səslənən bəyannamədə tərəflərin BMT nizamnaməsinə və bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanıyan 1991-ci il Alma-Ata bəyannaməsinə sadiqliyini təsdiq etməsi isə o deməkdir ki, Ermənistanla yanaşı, Avropa liderləri də Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu isə ondan xəbər verir ki, sülh danışıqları cənab Prezident İlham Əliyevin təklif etdiyi 5 prinsip əsasında aparılacaq. Bu məqam özü də Azərbacanın növbəti dəfə diplomatik qələbə qazandığını bir daha təsdiqləyir. Həmin qələbəmiz Ermənistanın danışıqlar masasında da məğlubiyyətini dərk edən baş naziri Nikol Paşinyanın məyusluq yağan sifətində də görünürdü və bu reallıqları təkcə biz yox, bütün dünya da gördü.

Sözsüz ki, Avropa İttifaqı missiyasının Ermənistana buraxılmasına Nikol Paşinanın razılıq verməsi erməni baş nazirin son ümidi idi, amma nəzərə almaq lazım idi ki, bu məqam onun Qərbə yönəlik siyasət aparmasını təsdiqləyir və bunu Rusyanın həzm etməyəcəyi də təkzib edilə bilməz. Təkzib edilə bilməz ki, Rusiya bu hərəkəti nə Paşinyana, nə də bütövlükdə Ermənistana bağışlamayacaq. Ermənistan artıq hər an Rusiyadan gələ biləcək "sürprizlərə" hazır olmalıdır. Bir sözlə, Ermənistanın baş naziri ölkəsinin hələ daha hansı təlatümlərlə qarşılaşacağının fərqində olmasa da bunu başa düşmək çətin deyil. Başa düşmək çətin deyil ki, onsuz da xarici dövlətlərdən, xüsusən Rusiyadan asılı olan, hər zaman ruslarin ətəyindən yapışıb mövcudluqlarını bu zamana qədər onların hesabına qoruya bilən bir ölkənin məhz Qərbə yön alması, bunu nümayişlərənə şəkildə etməsi Ermənistan üçün yaxşı heç nə vəd etmir. Nə iqtisadiyyatı, nə hərhansı istehsal sahəsi, nə hərbisi, nə də hansısa bir potensialı olmayan, Rusiyanın hesabına səfalət içərisində də olsa var olan bir dövlət öz himayədarına xəyanət etməklə özü üçün quyu qazmış olur. Rusiyanın Cənubi Qafqazda baş verən proseslərdən kənarda qalmaq niyyətində olmaması, Qərbə bu məsələdə güzəştə getməyəcəyi bəlli məsələdir və bütün bunların fonunda Ermənistanın Qərbə yönəlik siyasəti, Avropa İttifaqı missiyasının Ermənistana buraxılmasına Nikol Paşinanın razılıq verməsi ermənilər üçün çox acı nəticələr vəd edir. Bir sözlə, Ermənistan üçün gözləntilər heç də erməniləri qane etməyəcək.

Diqqət çəkən daha bir məqam ölkə rəhbərimizin, cənab Prezident İlham Əliyevin Avropa İttifaqının missiyasının ölkəmiz daxilində fəaliyyətinə razılıq verməməsidir. Əlbəttə ki, cənab Prezident buna haqlı olaraq razılıq vermədi, çünki istənilən xarici dövlətin və yaxud hansısa beynəlxalq təşkilatın müdaxiləsi suveren hüquqların məhdudlaşdırılması deməkdir, hansıki buna razılıq verməmək ən doğru addım, ən doğru qərardır. Sözügedən missiya ilə əməkdaşlığın ölkəmizin yalnız milli maraqları çərçivəsində mümkünlüyü bildirildi, çünki Ermənistandan fərqli olaraq bizim üçün suverenliyimizi qoruyub saxlamaq çox önəmli və prinsipial məsələdir. Nikol Paşinyanın isə sözügedən missiyanın Ermənistana buraxılmasına razılıq verməsi həmin ölkə üçün adi hal hesab olundu, çünki işğalçı ölkənin suverenliyinin məhdudlaşdırılması, suverenliyin heç olmaması, xarici faktorlardan asılı olması hər kəsə bəllidir.

Nikol Paşinyan və bütövlükdə erməni cəmiyyəti başa düşmüş oldu ki, Qərbin müəyyən dairələri belə Azərbacanın yaratdığı reallıqlar, ortada olan həqiqətlər, ölkəmizin haqlı mövqeyi qarşısında acizdirlər. Fransa kimi bir erməniperəst dövlətin prezidentinin belə Paşinyanın, eləcə də "dostu və kiçik baçısı" saydıqlarının istəkləri, arzuları müqabilində aciz olduğunu erməni cəmiyyəti də müşahidə etdi. Bütövlükdə erməni cəmiyyəti müşahidə etdi ki, Avropa İttifaqı üçün Ermənistan deyil, Azərbaycan maraqlı tərəfdir, özü də haqlı olmaqla. Ermənilər müşahidə etdilər ki, mövcud şəraitdə Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyi üçün əvəzolunmaz müttəfiqdir və bunu Praqa görüşləri bir daha təsdiq etdi. Təsdiq etdi ki, cənab Prezident İlham Əliyevin etibarlı, stabil, sözü ilə əməli üstüstə düşən, eləcə də müstəqil siyasət yeridən prinsipial lider olduğu bütün Avropada, ümumiyyətlə, bütün dünya yüksək qiymətləndirilir və eyni zamanda, qarşısında hansı fövqəldövlətin rəhbəri olursa-olsun ölkə rəhbərimizin milli maraqları hər zaman müdafiə etmək bacarığı xalqımız tərəfindən xüsusilə dəyərləndirilir.

Praqada dördlü format çərçivəsində keçirilən görüşün nəticələri Azərbaycan üçün birmənalı şəkildə müsbət qiymətləndirilir. Əvvəla, ona görə ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və bu, həm də iki ölkə arasında sərhədin müəyyənləşməsi istiqamətində danışıqların intensivləşməsi perspektivi deməkdir. Digər tərəfdən, Praqadakı razılaşmaların yerinə yetirilməsi ilin sonuna qədər iki ölkə arasında sülh sazişinin imzalanması ehtimalını artırır. Sözsüz ki, delimitasiya və demarkasiya məsələlərinə, eləcə də sülh müqaviləsinə Ermənistan tərəfinin bundan sonra mane olmaq cəhdləri həmin ölkənin öz əleyhinə yönələcək və bunu işğalçı ölkə nə qədər tez başa düşsə bir o qədər xeyrinə olar.

***İnam Hacıyev***

# Milli Məclisin növbəti plenar iclası keçirilib




**Milli Məclis Azərbaycanla İsrail arasında hava əlaqələri ilə bağlı sazişi təsdiqləyib. S?A xəbər verir ki, bununla bağlı məsələ parlamentin dünən keçirilən iclasının gündəliyinə daxil edilib. Toplantıda deputatlar ”Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında hava əlaqəsi haqqında” Sazişin təsdiq edilməsi barədə qanun layihəsini müzakirə ediblər.**

Sazişə əsasən, bir tərəfin dövlətinin ərazisindən birbaşa tranzitlə keçən və bu məqsədlə hava limanında ayrılmış sahəni tərk etməyən sərnişinlər, baqaj və yük aviasiya təhlükəsizliyi tədbirləri istisna olmaqla yalnız sadələşdirilmiş nəzarətdən keçəcəklər və mülki aviasiyanın təhlükəsizliyinə qarşı hər hansı digər təhlükənin qarşısının alınması üçün müraciət əsasında bir-birinə bütün lazımi yardımı göstərəcəklər. Sənəddə qeyd edilib ki, Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında hava əlaqəsinin qurulması məqsədilə 2022-ci il iyunun 30-da Tel-Əviv şəhərində imzalanan Saziş 25 maddədən və əlavədən ibarətdir.

Sazişin müddəaları eyni zamanda Çikaqo Konvensiyasının beynəlxalq hava əlaqələrinə tətbiq edilən müddəaları ilə şərtlənir. Sazişə əsasən, razılığa gələn tərəf müəyyən edilmiş marşrutlar üzrə razılaşdırılmış xidmətləri yerinə yetirmək məqsədilə digər razılığa gələn tərəfə bir və ya bir neçə aviasiya şirkətini yazılı şəkildə təyin etmək hüququna malikdir. Müzakirələrdən sonra sənəd səsverməyə çıxarılaraq qəbul edilib.

Bundan başqa Milli Məclisin dünən keçirilən plenar iclasında ”Ekstradisiya haqqında” Avropa Konvensiyasına Dördüncü Əlavə Protokolun təsdiq edilməsi barədə” qanun layihəsi müzakirəyə çıxarılıb. Belə ki, qanun layihəsinə əsasən, qeyd olunan əlavə Protokol ”Ekstradisiya haqqında” Avropa Konvensiyasının bir sıra müddəalarının müasirləşdirilməsi və onların tamamlanması məqsədilə hazırlanıb. Bu protokola Konvensiyanın 10-cu (müddətin keçməsi), 12-ci (sorğu və əlavə sənədlər), 14-cü (konkretlik qaydası), 21-ci (tranzit) maddələri yeni revaksiyada verilir. 15-ci (üçüncü dövlətə verilmə) maddəyə isə yeni bənd əlavə olunur. Bundan başqa, Konvensiyaya kommunikasiya kanalları və vasitələri, habelə dostcasına həlledilmə adlı yeni müddəaların əlavə olunması nəzərdə tutulur.

Dördüncü Əlavə Protokolun müddəaları münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistan Respublikası arasında münasibətlər normallaşana qədər Azərbaycan tərəfindən Ermənistana münasibətdə tətbiq edilməyəcək. Müzakirələrdən sonra sənəd səsverməyə qoyularaq qəbul edilib.

***Ayşən Vəli***

# Jurnalist vəsiqələri kimlərə şamil olunur?

*MEDİA rəsmisi açıqladı*



**Azərbaycanda jurnalist vəsiqəsinin forması, vəsiqənin verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası təsdiq edilib. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Eyni zamanda beynəlxalq praktikaya uyğun olaraq jurnalistlərin könüllülük əsasında Media Reyestrinə daxil edilməsi nəzərdə tutulmuşdur ki, Media Reyestrinə daxil edilmiş jurnalistlərə Medianın İnkişafı Agentliyi tərəfindən jurnalist vəsiqəsi veriləcək. Bəs, jurnalist vəsiqələri hansı jurnalistlərə şamil olunur?**

Medianın İnkişafı Agentliyinin Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva SİA-nın sorğusuna cavab olaraq bildirib ki, jurnalist vəsiqəsi jurnalistin həqiqətən jurnalist olduğunu deyil, müraciət etmiş şəxsə dair məlumatların həqiqətən reyestrə daxil edildiyini təsdiq edən sənəddir və peşəkarlıq meyarı olaraq çıxış etmir: ”Jurnalist bu vəsiqəni almadan da öz fəaliyyətini maneəsiz və qanunla müəyyən edilən bütün müdafiə mexanizmlərindən istifadə etməklə həyata keçirə bilər. Əlavə olaraq qeyd edim ki, jurnalist vəsiqəsinin mövcud olması jurnalistin çalışdığı media subyektinə aid vəsiqəni daşımasını məhdudlaşdırmır. Jurnalist vəsiqəsinin etibarlılıq müddəti üç ildir. Jurnalist vəsiqəsinin etibarlılıq müddəti bitdiyi gündən ən gec 3 iş günü müddətində həmin vəsiqəni agentliyə təhvil verməklə yenidən jurnalist vəsiqəsini almaq üçün müraciət etmək hüququna malikdir. Jurnalist vəsiqəsinin əldə edilməsi qanunvericiliklə nəzərdə tutulmuş tələblərə uyğun olduğu təqdirdə yalnız əmək müqaviləsi ilə işləyən deyil, eyni zamanda xidmət müqaviləsi ilə fəaliyyət göstərən jurnalistlərin hüququdur”.

***Arzu Qurbanlı***



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

# “Şəhərli” olma, MƏDƏNİYYƏTLİ OL!

**Sözsüz ki, dünyanın dağılıb batdığı, Putinin son çarə kimi qərbdəkiləri nüvə zərbəsi ilə hədələdiyi, rusiyalı anaların Ukrayna müharibəsinə qarşı açıq etirazlara başladıqları, İranda molla rejiminə qarşı kütləvi aksiyaların dağıdıcı fazaya keçdiyi, ərzaq böhranının dünyanı təşvişə saldığı bu günlərdə sosial mövzulara toxunmaq kimlərəsə cansıxıcı görünə bilər. Çünki bu günlərdə hər kəsin diqqəti dünyamızı başına alıb gedən dağıdıcı proseslərdədir. Xüsusilə, ərzaq qıtlığı barədəki xəbərdarlıqlar hər şeyin önünə keçib. Məlumdur: İnsan övladı yaşamaq istəyir...**

Amma unutmayaq ki, siyasi oyunlar üçün yazılmış ssenari olan o dünya hadisələri nə vaxtsa bitəcək, hər şey nağıllarda olduğu kimi, yenə öz axarına düşəcək, amma indi yazdığım mövzu bundan sonra da yüz illər boyu həmişə aktual olaraq qalacaq. ŞƏHƏR MƏDƏNİYYƏTİ.....

Şəhər mədəniyyəti, yüksək mədəni dəyərlərə sahib olmaq, vətəndaş məsuliyyəti, yaşadığın şəhəri çirkabdan qorumaq, küçə və xiyabanları zibilliklərə çevirməmək, yaşadığın şəhəri ilk növbədə ÖZ EVİN kimi görməkdir.

Təəssüf ki, bizim cəmiyyət düşüncə baxımından bu sadaladıqlarımdan hələ ki, çox uzaqlardadır. Çünki nə qədər müasirləşsək də, dünyanın ən qabaqcıl texnologiyaları ilə ”silahlansaq” da, varlı-kasıb hər bir vətəndaşımızın evində ən müasir texnologiyalar cehizlik əşya kimi evin yuxarı başında əzizlənsə də, qüsurlu ictimai şüurdan heç cürə qurtula bilmirik. Beynimizin içindəki düşüncələrdə neçə əsrlərdir bizimlə yol gəlir bu qüsurlar.

Sanki şəhər mədəniyyətinə, ictimai qaydalara qarşı bizdə bir psixoloji allergiya formalaşıb son neçə onilliklərdir. Biz sevmirik növbəyə düzülüb sıramızı gözləməyi, biz sevmirik ictimai yerdə mövcud qaydalara riayət etməyi, biz sevmirik beş-on metr addımlayıb əlimizdəki zibili yaxınlığdakı zibil qabına atmağı. Biz həm də öyrəşə bilmədik yaşadığımız yeri öz evimiz kimi qorumağa. Sanki düşüncəmizdə bunlara qarşı əks ”immunitet” formalaşıb əsrlərdir. Əslində, elə əsrlərdir qurtula bilmədiyimiz irili-xırdalı rüşvət mərəzi də elə bu zəhirmara qalmış ”immunitetimizdən” irəli gəlir. Bu isə o deməkdir ki, əsrlər keçsə də beyinlərimizdə, düşüncə və şüurumuzda YENİLİK EDƏ BİLMİRİK, sanki alınmır bizdə bu dediklərim.

Şəhərdə yaşamaq, avtobus və metroya minmək, ən prestij idarələrdə çalışmaq, övladını şəhərin prestij məktəblərində oxutmaq hələ şəhərli olmaq demək deyil. Şəhərli titulu üçün ilk əvvəl şəhər mədəniyyətinə sahib olmalısan. Şəhər mədəniyyəti üçün ən üstün sayıla biləcək məqam budur: yaşadığın şəhərə ÖZ EVİN KİMİ YANAŞACAQSAN! Təəssüf ki, bizim ictimai düşüncəmiz bu istiqamətə yön almayıb hələ.

Sözsüz ki, şəhər mədəniyyəti barədə danışarkən ilk olaraq paytaxt Bakının bugünkü mənzərəsinə toxunmasaq qəti olmaz. Son günlər şəhər nəqliyyatındakı fəlakətli vəziyyət, metrolarda yaranan növbələr, insanlar arasında avtobusa minmək üçün yaranan əsl mübarizə, nizamsız sürücülərin şəhəri başına götürən siqnal səsləri, bölgələrdən Bakıya axışan, şəhər mühiti ilə heç cür uyğunlaşmayan ucuz işçi qüvvəsinin şəhər həyatında artan təsiri, bütün bunlar hazırkı paytaxt Bakının acı mənzərəsidir. Bu, həm də ilk növbədə, şəhər mədəniyyətinə vurulan ən böyük zərbədir. Müxtəlif ictimai düşüncə dərəcəsində olan insanların əsl şəhər mühitinə uyğunlaşması, şəhər mədəniyyətini mənimsəməsi mümkünsüzdür.

Bir məqam xüsusilə vurğulanmalıdır: Ötən əsrin 60-cı illəri təkcə ədəbiyyatımızın pik nöqtədə olduğu qızıl illər kimi deyil, həm də əsl şəhər mədəniyyətinin çiçəkləndiyi zamanlar kimi də yadda qalıb. O zamanlar paytaxt Bakı şəhər mədəniyyəti baxımından xüsusilə seçilirdi. Küçələrdəki səliqə-sahman, yüksək mədəniyyətə sahib, xüsusilə, əxlaq və dəyərləri qoruyan ŞƏHƏR ƏHALİSİ şəhər mədəniyyəti üçün önəmli faktor idi. Bakı ötən əsrin 80-ci illərinin ortalarından artıq bu nizamını sürətlə itirməyə başladı...

Sözsüz ki, təmizlik, yaşadığın küçə və bölgəni təmiz saxlamaq, zibil qalıqlarını yerə deyil, xüsusi ayrılmış zibil qutularına tullamaq hər bir insan üçün başlıca prinsipdir. Bu amil şəhərli-kəndli hər kəs üçün, həm də kənd və şəhər üçün keçərlidir. Burası belədir. Amma şəhər həyatında bunun önəmi ikiqat çoxdur. Çünki kənd və bölgələrdən fərqli olaraq şəhərlər sənaye zonasıdır, insanların olduqca kütləvi yaşadıqları yerdir, nəqliyyat və infrastrukturun olduqca sıx və gərgin işlədiyi məkandır. Belədə təmiz hava, təmiz şəhər iqliminin bizim daha sağlam yaşamağımız üçün nə qədər həyati önəm daşıdığı ortaya çıxır. Təmizlik, saf ekologiya, təmiz və səliqəli küçələr bir şəhər üçün ən böyük prestij sayılır.

Müasir Bakıda yaşayan müxtəlif düşüncə və ”mədəniyyət” sahibi olan bir qisim ”şəhərlilər” var ki, onlar sevirlər güzgülü, gözəl liftlərdə tualet ehtiyacını ”ödəməyi”, səhər evindən çıxartdığı zibil ”səbətlərini” elə liftdəcə ”unutmağı”, şənbə-bazar günləri səhər saat 7-8 radələrindən başlayaraq səsgücləndirici ilə ”musiqi” dinləməyi, küçədə uca səslə söyüş söyməyi, yerlərə tüpürməyi...

Bax odur ki, belə arzuolunmaz ”şəhərli” olma, əsl MƏDƏNİYYƏTLİ OL!




# Növbəti ilin büdcə layihəsi iqtisadi inkişafdan xəbər verir

**Artıq parlamentə təqdim olunan 2023-cü ilin dövlət büdcəsinin bir neçə parametrləri diqqəti cəlb edir. Qarşıdan gələn il büdcənin gəlirləri 30,7 milyard, xərcləri isə 33,3 milyard manat proqnozlaşdırılır, hansıki bu, Ümumi Daxili Məhsulun 31,5 faizi həddindədir. Bununla belə, gələn ilin büdcəsində nəzərdə tutulanlar xalqımızın, dövlətimizin maraqları baxımından çox təqdirəlayiqdir.**

Xüsusilə diqqətə çatdırmaq yerinə düşərdi ki, qarşıdan gələn ildə ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi üçün xərclərin strukturunda dəyişiklik, daha dəqiq desək, artım nəzərə çarpır. Bələki, 2023-cü ildə müdafiə potensialımızın möhkəmləndirilməsi məqsədi ilə 5,3 milyard manat ayrılması nəzərdə tutulub və nəzərə alsaq ki, cari ildə həmin xərclər 5 milyard 85 min olub, deməli bəlli olur ki, növbəti ildə bu rəqəmin 215 milyon manat artırılacağı nəzərdə tutulub. Faizlə qeyd etmiş olsaq, gələn il ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi üçün xərclər 4,6 faiz armış olacaq və bu heç də təsadüfi deyil.

Sözsüz ki, ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi üçün xərclərin artırılması əbəs yerə deyil, məqsədli xarakter daşıyır. Doğrudur, qonşu dövlət, işğalçı ölkə olan Ermənistan nə qədər hərbi xərclərini artırsa da, nə qədər silahlanmaya və hərbi gücünün artırılmasına vəsait ayırsa da, ölkəmizin mövcud hərbi qüdrəti ilə müqaisə belə oluna və hərhansı müstəvidə Azərbacanla yarışa girə bilməz. Amma etiraf edək ki, düşmən hədsiz dərəcədə hiyləgərdir və bundan sonra hansı əməllərə əl atacağı, hansı fitnələr törədəcəyi barədə qabaqcadan heç bir proqnoz vermək olmaz. Elə bu baxımdan da Azərbaycan işğalçı dövlət olan Ermənistanla hərbi xərclər, hərbi potensial, müdafiə potensialı baxımından kəskin şəkildə üstünlüyünü qorumalıdır.

Eyni zamanda, ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi məqsədi ilə xərclərin strukturunda dəyişiklik, yəni artım həm də mesaj olaraq qəbul edilir. Bəzi qüvvələrin hələ də revanşist ideyaları cücərtmək cəhdləri göz önündədir və belə bir artım həmin pozucu qüvvələr üçün lazımlı mesaj sayılır. Düşmənin psixoloji cəhətdən də baş qaldırmasının qarşısının alınması üçün bu mesajın böyük əhəmiyyəti var və bu danılmazdır. Çünki sülh istəyən dövlətin öz hərbi qüdrətini artırmalı olduğu öz təsdiqini çoxdan tapıb. Düşmən öz qarşısında güclü və daha da güclənməkdə olan rəqibini gördükdə xam xəyallara, məsələn revanş kimi hansısa istəyə düşə bilmir, baxmayaraq ki, bu fikir çoxdandır işğalçı ölkədə dövriyyəyə buraxılıb və uğursuzluğu da göz önündədir. Səbəb isə təbii ki, ölkəmizin hər bir sahə olduğu kimi, müdafiə potensialının da möhkəmləndirilməsidir. Əlbəttə, görürük ki, bütün bunlar, təhlükəsizliyimizin təminatı, ərazi bütövlüyümüzün mühafizəsi baxımından olduqca əhəmiyyətlidir və bu səbəbdən də gələn ilin büdcəsində artım edilib.

Heç şübhəsiz ki, ərazi bütövlüyümüzün, təhlükəsizliyimizin təminatı ilə yanaşı, dövlətimiz sosial layihələrə də xüsusi yer verir. Ölkəmizin büdcəsinin sosial xarakterli olduğu son illərdə öz təsdiqini tapıb. Vətəndaşlarımız ölkəmizdə sosial laihələrə nə qədər diqqət ayrıldığının fərqindədirlər. İndi həmin sosial layihələri nə sadalamaqla bitməz, nə də bunu bilməyən oxdur ki, sadalamağa da ehtiyac olsun. Məhz bu ənənə yenə də davam etdirilir və növbəti ildə də sosial layihələrə xüsusi yer arılıb və hətta cari illə müqaisədə daha artıq vəsait ayrılır. Bələki, 2023-cü il üzrə dövlət büdcəsinin sosial yönümlü xərclərində bu illə müqayisədə 9,2% artım var. Gələn ilin büdcəsində sosial xərclərin 40 faiz təşkil edəcəyi nəzərdə tutulur ki, bu da dövlətimizin sosial yönümlü siyasətini davam etdirdiyini isbatlayır.

Unutmaq lazım deyil ki, bütün dünya iqtisadiyyatı üçün üzümüzə gələn il heç də nikbin proqnozlar vəd etmir. Uzun zamandır ki, qlobal böhran barədə bütün dünya həyəcan təbili çalır və dünya düzənində baş verən proseslər, xüsusən də Rusia ilə Ukrayna arasında davam edən müharibə, bu səbəbdən enerji resurslarının, təbii qazın və digər resursların ruslar tərəfindən Qərbə ötürülməməsi, ümumiyətlə logistikanın belə pozulması növbəti ildə daha kəskin şəraitin olma ehtimalını artırır. Bir sözlə, gələn il bütün dünya üçün ağır keçə bilər, çünki planetin müxtəlif xarakterli böhranlarla üzləşə biləcəyi gözləniləndir. Enerji təhlükəsizliyi ilə yanaşı, ərzaq təhlükəsizliyi də dünyanı narahat edir. Təkcə taxıl tədarükü məsələsi belə heç də yüngül məsələ deyil. Ələlxüsus, dünyanın ən çox taxıl ixracatçısı olan Ukrayna və Rusiyanın həmin strateji kənd təsərrüfatı məhsulunu ixrac etməməsi, yaxud ixrac edə bilməməsi bütün dünya üçün çətinliklər deməkdir. Yəni, bütün dünya gələn ildə çətinliklərlə qarşılaşa biləcəyi ilə barışıb və bütün dünyanın belə bir çətin durumda olması fonunda Azərbacanın gələn ildə sosial yönümlü layihələrə büdcə məsələsində yer ayırması və bunu cari ildəkindən də artıq nəzərdə tutması xüsusi diqqət çəkən məqamdır. Əvvəla, bu məqam ölkəmizin iqtisadi potensialından, gücündən, qüdrətindən xəbər verir. Digər tərəfdən də dövlətimizin öz vətəndaşlarına diqqətini, vətəndaş amilinin birinci yerdə durduğunu təsdiqləyir.

Qeyd etdiyimiz kimi, dünya iqtisadiyyatı özünün demək olar ki, ən çətin dövrünü yaşayır. Qlobal böhran özünü göstərir və bu fonda üstəlik, ərzaq təhlükəsizliyi də bütün dünyanı narahat edir, ölkələr artıq xarici amillərdən asılılıqdan çəkinirlər. Sözsüz ki, daxili istehsalın artırılması, ələlxüsus kənd təsərrüfatı məhsullarına olan tələbatın daxili istehsal hesabına təmin olunması bu məqamda ən doğru addımdır. Məhz bütün bunlar nəzərə alınaraq, gələn ilin dövlət büdcəsində kənd təsərrüfatının inkişafı üçün olan xərclər bu illə müqayisədə düz 20,5% artırılıb, bu rəqəm çox ciddi artım deməkdir. Nəzərə almaq lazımdır ki, 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimiz artıq işğaldan azad edilib və həmin ərazilərdə kənd təsərrütı üçün yararlı torpaqların istifadəsi, əkilib-becərilməsi məqsədə uğundur və sözsüz ki, tələbatın daxili resurslar hesabına ödənilməsi baxımından əvəzsizdir. İndi həmin ərazilərin minalardan təmizlənməsinin ardınca əkilib-becərilməsi kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsinə öz müsbət təsirini göstərəcəkdir. Bu baxımdan gələn ilin büdcəsində kənd təsərrüfatının inkişafı üçün xərclərin artırılması ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində ən doğru, ən düzgün addımdır.

Diqqəti çəkən daha bir incə, həm də maraqlı məqam da var. Məsələ burasındadır ki, 2023-cü ildə büdcə gəlirlərinin 53 faizi, yəni 16 milyard 297 milyon manatı neft sektorunun, 47 faizi, yəni 14 milyard 423,7 milyon manatı qeyri-neft sektorunun payına düşəcək. Bu isə ondan xəbər verir ki, qeyri-neft sektoru artmaqdadır və yaxın gələcəkdə neft sektoru ilə bərabər, hətta ondan da artıq olacaq. Bir sözlə, aparılan məqsədyönlü siyasət artıq ölkənin neftdən asılılığını minimuma endirməkdədir. Növbəti il üçün nəzərdə tutulan büdcə, əslində ölkəmizin doğru yolda olduğunu, dövlətimizin həmçinin düzgün iqtisadi siyasət apardığını, Azərbacanın günügündən, ildən-ilə inkişaf etdiyini təsdiqləyir, iqtisadi inkişafdan xəbər verir. Təsdiq edir ki, ən yaxın zamanda daha böyük uğurlara imza atılacaq, daha geniş, daha sürətli inkişafa nail olunacaq və bu, hər birimizi daha da ruhlandırır.

***İnam Hacıyev***

# Ermənistan yenidən quyudadır: bu dəfə demoqrafik cəhətdən

*Yaxud, ölkədə əlavə insanlar yoxdur...*




2020-ci il Ermənistan üçün fəlakətli il oldu və bu fəlakət əsasən özünü ölkənin demoqrafik situasiyasına təsir etdi. Ekspertlər hesab edirlər ki, 2020-ci il olayları multiplikativ effekt daşıyır və həmin effekt uzunmüddətli perspektivdə özünü göstərəcək. Misal üçün, erməni tarixçisi və demokqafiya üzrə ekspert Mikael Malxasyana görə ölkənin demoqrafik göstəriciləri xüsusilə son illərdə narahatlıq yaratmağa başladıb. Belə ki, situasiya epidemiya fonundakı 44 günlük müharibədə daha da pisləşib. Məhz bu kontekstdə 2020-2021-ci illər ən ağır dövr kimi göstərilir. Malxasyan əmindir ki, bu baxımdan, 44 günlük müharibə özünün ağrılı fəsadlarını bundan sonrakı uzun illərdə göstərməyə davam edəcək. Lakin bu da son deyil...

Mikael Malxasyan: "Müharibədə həlak olanların çoxu reproduktiv yaşlı kişilər olublar. Bu fakt uzunmüddətli perspektivdə qadın və kişi əhalisi arasında disbalans yaradacaq, eyni zamanda nikah saylarına, habelə doğumlara neqativ təsirlərini göstərəcək"

Erməni eksperti hesab edir ki, ağır demoqrafik vəziyyətə daha bir səbəb boşanma tendensiyasının sürətlə artmasıdır. Məsələ ondadır ki, 2020-2021-ci illərlə müqayisədə 2022-ci ilin boşanmaları 40,14%-ə yüksəlib. Malxasyan əhalinin yaşlaşması faktorunu da demoqrafik fəsadlara gətirib-çıxardığını bildirib. Belə ki, hələ 2020-ci ilin müharibəsinə qədər əhalinin 20%-ini 0-14 yaşlı, 67,5%-ni 15-64 , 12%-ni 65 yaş və yuxarı vətəndaşlar əhatə edirdi.

"Müharibədə həlak olanların çoxu reproduktiv yaşlı kişilər olublar. Bu fakt uzunmüddətli perspektivdə qadın və kişi əhalisi arasında disbalans yaradacaq, eyni zamanda nikah saylarına, habelə doğumlara neqativ təsirlərini göstərəcək", deyən ekspert əlavə edib ki, 44 günlük müharibədə 2000-2002-ci ildə anada olan oğlan uşaqları həlak olublar. Bu dövr isə Ermənistanda aşağı doğum dövrü kimi qeyd edilib. O əmindir ki, baş verən hadisələr səbəbindən yaranmış demoqrafik quyu gələcəkdə ciddi problemlərə gətirib-çıxaracaq.

***Rövşən RƏSULOV***

# “Zəfərə gedən yolun başlanğıcı - 2003-cü il”

“Səs” qəzetinin redaksiyasında Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü il 15 oktyabr tarixində Prezident seçilməsinin ildönümü ilə bağlı ”Zəfərə gedən yolun başlanğıcı - 2003-cü il” mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Musa Quliyev, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərov, YAP İdarə Heyətinin üzvü Elnur Sadıqov, YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov və YAP Yasamal rayon təşkilatının Gənclər Birliyinin üzvü Fərid Mustafayev iştirak edirdilər. Dəyirmi masanı giriş sözü ilə açan ”Səs” qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyev qeyd etdi ki, ”Səs” qəzeti cəmiyyətin maraq dairəsində olan ən aktual, ictimai-siyasi əhəmiyyət kəsb edən mövzular çərçivəsində hər zaman dəyirmi masalar təşkil edib. Növbəti dəyirmi masa Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyinin 19-cu ildönümünə həsr olunub: ”XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. 15 oktyabr 2003-cü ildə ölkəmizdə keçirilən prezident seçkilərində inamlı qələbə qazanan Cənab İlham Əliyev ötən 19 il ərzində Azərbaycanın qazandığı uğurların müəllifidir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ilk günlərdən başlayaraq, nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verir”.



"Səs" qəzetində Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü il 15 oktyabr tarixində Prezident seçilməsinin ildönümü ilə bağlı dəyirmi masa keçirildi

**”SƏS” QƏZETİNİN ƏMƏKDAŞI:**

- Bugünkü dəyirmi masada Azərbaycan Prezidenti İlham Əliyevin 19 illik Prezidentlik dövründə Onun rəhbərliyi altında güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan ölkəmizin keçdiyi yola nəzər salacağıq. Arif müəllim, bildiyimiz kimi, 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərkən bildirmişdi: ”İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Bu inam Ulu Öndərin siyasi varisi Cənab İlham Əliyevin üzərinə böyük məsuliyyət qoyurdu. Keçirilən seçkilərində seçicilərin səsçoxluğu ilə Cənab İlham Əliyev Prezident seçildi. Həmin dövrə qısa da olsa nəzər salaq.

## HƏYATA KEÇİRİLƏN KOMPLEKS İSLAHATLAR, GENİŞ QURUCULUQ İŞLƏRİ VƏ YARADILAN GÜCLÜ İQTİSADİYYAT

## AZƏRBAYCANIN ƏSAS İNKİŞAF GÖSTƏRİCİLƏRİDİR



**ARİF RƏHİMZADƏ:**

- Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən ölkəsi kimi müasir dünyanın çağırışlarına cavab olaraq yeni dövrünü yaşayır. Ümummilli Lider Heydər Əliyevin istər sovet məkanında yaşadığımız illərdə - 1969-cu ildən başlayaraq, Azərbaycanın Birinci Katibi vəzifəsində çalışdığı zamanda, istərsə də 1993-cü ildə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş verən dönüş, inkişaf, eləcə də, ölkəmizin dünya məkanında özünəməxsus yer tutması Onun məqsədyönlü fəaliyyətinin nəticəsidir. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq oldu. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın və digər sahələrin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edildi. Ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlandı və dərhal onların icrasına başlanıldı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər ətrafında əhəmiyyətli qərarların qəbul edilməsinə nail olurdu. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda çalışırdı. Heydər Əliyev 1993-cü ildə ölkəmizdə siyasi böhran yaşandığı, vətəndaş müharibəsi təhlükəsi yarandığı, Ermənistanın təcavüzünün gücləndiyi bir vaxtda siyasi hakimiyyətə qayıdaraq Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması üçün ciddi və təxirəsalınmaz addımlar atdı. Ulu Öndər ölkədə ictimai-siyasi, iqtisadi sabitliyin yaradılmasına uzaqgörən, məqsədyönlü siyasəti ilə nail oldu. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev 19 il əvvəl bəyan etmişdi ki, prezident seçiləcəyi təqdirdə regionların inkişafına prioritet məsələ kimi baxacaq. Dövlət başçısının bu istiqamətdə atdığı mühüm addımlar Azərbaycanın inkişaf və tərəqqisinə gətirib çıxardı. Həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində, respublikamızın bütün bölgələrinin inkişafına səbəb olub.Prezident İlham Əliyev ötən 19 il ərzində millətimiz üçün ən ağrılı bəla olan, dövlətimiz üçün taleyüklü məsələlərdən olan erməni işğalı altında olan torpaqlarımızın azad olunması yolunda yorulmadan çalışdı. Ali Baş Komandan Ermənistana və onun havadarlarına 44 günlük Vətən müharibəsində Azərbaycanın güclü bir dövlət olduğunu sübuta yetirdi və ölkəmiz Zəfər qazandı.

**SƏS QƏZETİNİN ƏMƏKDAŞI:**

- Musa müəllim, iqtisadiyyatda həyata keçirilən köklü islahatlar sosial sferada dinamik və davamlı inkişafı təmin etməklə bərabər, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına geniş imkanlar açıb. Dövlətimiz tərəfindən sosial sahədə həyata keçirilən uğurlu siyasət xalqın rifahının yüksəlməsinə hansı töhfələri verib?

## AZƏRBAYCAN DÖVLƏTİNİN SOSİAL SİYASƏTİNİN ƏSASINDA XALQIN RİFAHININ YÜKSƏLMƏSİ DAYANIR

**- MUSA QULİYEV:**

- Son 19 ildə müstəqil Azərbaycanda güclü dövlət idarəçiliyinin mövcudluğu dövlətimizin tarixində ən uğurlu inkişaf dövrü kimi xarakterizə edilir. Dövlət başçısının imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi praqmatik, real qərarlar ölkəmizin dinamik yüksəlişini təmin edib. Əlbəttə ki, Cənab İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmiz bütün sahələr üzrə sürətli inkişaf yoluna qə-



dəm qoydu. Dövlət başçısının verdiyi bütün vədlər və təqdim etdiyi proqramlar ardıcıllıqla və dəqiqliklə yerinə yetirilib. Əldə edilən uğurlar, nailiyyətlər Prezident İlham Əliyevin siyasətinə olan etimadı daha da gücləndirib. Bu gün Azərbaycan qalib xalqdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın silahlı qüvvələrini məhv edərək tariximizə yeni bir gün yazdı. Əlbəttə ki, bu müharibədəki qələbədə gənclərimizin vətənpərvərliyi də önəmli faktordur. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edib. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib". Cənab Prezident bildirib ki, Onun Azərbaycana rəhbərliyi dövründə yetişən insanlar bu torpaqları azad etdilər:"Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi". Bu günlərdə imzalanan fərman və sərəncamlar insanların sosial həyatının yaxşılaşdırılmasına və vətəndaş məmnunluğunun artırılmasına yönəldilib. Minimum əməkhaqqının, pensiyaların, təqaüdlərinin və digər ödənişlərin artırılması sosialyönümlülük və humanizm prinsiplərinə əsaslanır.İdarəetmə sistemində elektron "Vahid məkan" prinsipi əsasında fəaliyyət göstərən "ASAN xidmət" Azərbaycan modeli olaraq dünyada tanınır. Mərkəzlərində vətəndaşlara xidmətin daha yaxşı göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur. Bütün bunlar vətəndaşların rahatlığının təminatında, onlara şəffaf və nəzakətli xidmətin göstərilməsinin əsas faktorlarıdır. Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzləri beynəlxalq mükafatlara layiq görülüb. DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların davamıdır. DOST layihəsi, artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb. Bu gün Azərbaycan təcrübəsi dünya ölkələrində öyrənilir. Prezidentin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyi və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas məqsədləri əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və əhalinin rifah səviyyəsinin yüksəldilməsidir. Bu istiqamətdə aparılan islahatlar, görülən işlər təqdirəlayiqdir və hər bir Azərbaycan vətəndaşı tərəfindən rəğbətlə qarşılanır. Çünki dövlətimiz vətəndaşının mənafeyinə xidmət edir.Bu gün neftdən gələn gəlirlər insan kapitalına yönəldilir. Bu gün gənclərin xaricdə təhsilinə diqqət ayrılır və bununla bağlı dövlət proqramı var. 3000 Azərbaycan gənci dövlət hesabına, 2000-i isə Heydər Əliyev fondu və digər fondlar hesabına xaricdə təhsil alırlar. Şəhid ailələrinə, qazilərimizə ayrılan diqqət də xüsusi olaraq vurğulamalıyıq. Aparılan islahatlar planlı, Azərbaycan dövlətinin sosial iqtisadi inkişafına, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq gerçəkləşir. Bu bir daha göstərir ki, Azərbaycan dövlətinin sosial siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır.

## XALQIN TALEYÜKLÜ MƏSƏLƏLƏRİ DÖVLƏT BAŞÇIMIZ TƏRƏFİNDƏN HƏLLİNİ TAPIB



**ŞAHLAR ƏSGƏROV:**

- Vətəndaşlara qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması istiqamətində aparılan işlər Azərbaycan dövlətinin prioritetlərindəndir. Ölkə başçısının siyasi iradəsinə uyğun olaraq ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz insan amili, vətəndaşların mənafeyi dayanır. Cənab İlham Əliyev ötən 19 ildə cəmiyyətdə mütləq çoxluğun böyük rəğbət və etimad göstərdiyi liderə çevrilmişdir. Bu müddət ərzində ölkəmizin bütün sahələrində sürətli inkişafa nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Cənab Prezident tərəfindən siyasi və iqtisadi islahatların paralel şəkildə aparılması davamlı uğurlara yol açdı. Cənab İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında bildirdiyi sözləri xatırlatmaq yerinə düşər:"Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının Prezidenti oldu və xalqın etimadını doğrultdu. Ötən on doqquz il aydın şəkildə göstərdi ki, Cənab İlham Əliyev Prezidentliyi dövründə ölkə həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir. Xalqın taleyüklü məsələləri dövlət başçımız tərəfindən həllini tapıb. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Dinamik inkişaf yolunda olan Azərbaycan bu gün torpaqlarını işğaldan azad edən qalib



xalqdır. 44 günlük Vətən müharibəsi Cənab İlham Əliyevin qətiyyəti, hərbi qələbəni siyasi qələbəyə çevirən diplomatik məharəti nəticəsində Zəfər ilə sona yetdi. Azərbaycanın həm hərb meydanında, həm də diplomatiya sahəsində Ermənistanı diz çökdürməsi dövlətimizin gücünün göstəricisidir. Bütün dünya Ordumuzun gücünü, işğalçı Ermənistanın məğlubiyyətini gördü. Cənab Prezidentin Liderlik xüsusiyyətlərinin ən mühüm cəhətlərindən olan qətiyyəti Vətən müharibəsinin ilk anlarından başlayaraq, öz bəhrəsini verdi. Azərbaycan xalqı başda olmaqla, bütün türk dünyası bu tarixi Zəfəri yaşadı. Günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasının reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Artıq irimiqyaslı layihələr icra olunur. Dövlət başçısının siyasi iradəsi, qətiyyətli mövqeyi nəticəsində bu gün doğma evimizə - Qarabağa yol almışıq. Qarabağ yenidən qurulur. Böyük Qayıdış Azərbaycanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uzaqgörən, müdrik siyasəti nəticəsində daha qüdrətli, güclü dövlətə çevirəcək.

## SON 19 İL ƏRZİNDƏ NEFT-QAZ SEKTORUNA QOYULAN SƏRMAYƏ NƏTİCƏSİNDƏ ÖLKƏMİZ REGİONUN ƏN MÜHÜM TRANZİT MƏRKƏZİNƏ ÇEVRİLİB

**ELNUR SADIQOV:**

- Sağlam və etibarlı təməl üzərində qurulan hər bir dövlət uzun müddətli inkişaf perspektivi qazanmış olur. Bu baxımdan, Azərbaycan dövlətinin də gələcəyi sağlam və etibarlı təməl üzərində qurulmuşdur. Bu təməllərin də əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu amillər də dövlətimizin modernləşməsi, güclənməsi və iqtisadiyyatımızın inkişafına şərait yaratmışdır. Ulu Öndərin bu siyasəti onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir.1994-cü ildə Heydər Əliyev tərəfindən əsası qoyulan iqtisadi və geopolitik sahənin inkişafı bu gün də neft strategiyasının inkişafında İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 19 il ərzində neft-qaz sektoruna qoyulan sərmayə nəticəsində ölkəmiz regionun ən mühüm tranzit mərkəzinə çevrilmişdir. Buna misal olaraq Bakı - Tbilisi - Ceyhan, Bakı - Supsa, Bakı - Novorossiysk neft və Bakı - Tbilisi - Ərzurum qaz kəmərlərini qeyd edə bilərik. Dövlət Neft Fondunun valyuta ehtiyatları hesabına həm müxtəlif sosialyönümlü layihələrin icrasına, həm də gələcək nəsillərin rifahına xidmət edilmişdir.Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin məqsədi ölkənin tərəqqisinə nail olmaqdır. Bu da ölkəni xammal ixrac edən ölkədən sənaye məhsulu ixrac edən dövlətə çevirməyə xidmət edir.

Məlum olduğu kimi, əsası Ulu Öndər tərəfindən qoyulmuş inkişaf strategiyası bu gün də qabaqcıl dünya təcrübəsinə və milli iqtisadi reallıqlara əsaslanaraq, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Nəticədə milli iqtisadiyyatın davamlı inkişafı təmin edilmişdir. İstehsal və maliyyə potensialı, infrastruktur bazalarının yaradılması bir çox problemləri aradan qaldırmaqla yanaşı, regionlararası inkişafa səbəb olmuşdur. Ölkə başçısının iqtisadi sahədə yürütdüyü siyasət regionlararası əlaqələri inkişaf etdirməkdir. Onun "Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı 2004-2008-ci illər" məhz regionlararası iqtisadi inkişafa xidmət edirdi. Məqsəd və vəzifələrin coxcəhətliliyi ilə diqqəti cəlb edən bu Fərmanda regionların iqtisadi və sosial inkişaf sahələri öz əksini tapmışdır.İlham Əliyevin apardığı siyasət nəticəsində təhsil və səhiyyə sahələri nəinki paytaxtda, eyni zamanda ətraf bölgələrdə də sürətlə inkişaf etmişdir. Bununla əlaqədar olaraq paytaxtla yanaşı, ətraf bölgələrdə də müasir idman obyektləri istifadəyə verilmişdir. Bu obyektlərin istifadəyə verilməsi təbii ki, əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir. Prezident İlham Əliyev tərəfindən məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi, sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsinə şərait yaratmışdır. Həyata keçirilən uğurlu siyasət və idarəçilik təhlükəsizliyin və sabitliyin gücləndirilməsinə, müstəqilliyimizin möhkəmləndirilməsinə, dövlətimizin qüdrətinin artmasına və xalqımızın rifahının yüksəlməsinə xidmət edir.

(Ardı var)

***Nəzakət ƏLƏDDİNQIZI***

## Vahe Hovhannisyan:
## "Ermənistan artıq Qarabağın təhlükəsizliyini təmin edə bilməz"



"Hakimiyyət açıq şəkildə bəyan edir ki, Ermənistan artıq Qarabağın təhlükəsizliyini təmin edə bilməz". SİA erməni mediasına istinadən xəbər verir ki, bunu "Alternativ Layihələr" qrupunun eksperti Vahe Hovhannisyan öz Telegram kanalında yazıb.

"Bəs kim edə bilər? Bu gün yalnız və yalnız Rusiya sülhməramlıları. Bu gün yalnız onlar 150-200 min erməninin dinc həyatını təmin edir. Onlar olmasa, yeni soyqırımımız, yeni vətən itkimiz olacaq. Hakimiyyət bunu yaxşı bilir. Hakimiyyət niyə açıq demarşlar da daxil olmaqla anti-Rusiya kampaniyasına başladı? Bu işdə yüksək vəzifəli məmurlar, hökumətyönlü media (ictimai kanal da daxil olmaqla), "etibarlı mənbədən" sızıntılar, hakimiyyətin nəzarətində olan ictimai xadimlər iştirak edir. Bizim hökumət niyə erməni cəmiyyətində anti-Rusiya əhval-ruhiyyəsinin formalaşmasına təkan verir?

Axı Ermənistan hakimiyyəti bu yolla Qarabağ ermənilərini fiziki məhv olmaq təhlükəsi qarşısında qoyur. Bu dövlət dəliliyidir, yoxsa soyuqqanlı macəra?", deyə ekspert bildirib.



# Şəhidlik zirvəsinə ucalan qəhrəmanlar!

## Şəhidlərin əziz xatirəsi ölkəmizin hər yerində ehtiramla yad olunur

### Ağdaş

Dünən Ağdaş rayonunun Ərəbocağı kəndində Vətən müharibəsi şəhidi İdrisov Xəyal İbrahim oğlunun şəhidlik zirvəsinə ucalmasının ikinci ildönümü münasibətilə mərasimlər keçirilmişdir. Əvvəlcə YAP Ağdaş rayon təşkilatının fəalları, Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İsmayıl Yusifzadə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş rayon şöbəsinin rəisi Nizami Heybətov, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları, şəhidin xidmət etdiyi hərbi hissənin nümayəndələri şəhidin ailəsini ziyarət etmiş, vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidimizin əziz xatirəsi ehtiramla anılmış, ruhuna dualar oxunmuş, döyüş yolu barədə söhbət açılmış, valideyinlərinə başsağlığı verilmişdir.



Ərəbocağı kəndinin şəhidlərinin xatirəsinə ucaldılmış Şəhidlər bulağının önündə davam edən anım mərasimi Dövlət Himninin səslənməsi ilə başlamış, vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, şəhidlərin ruhlarına dualar oxunmuşdur. Şəhidin məzun olduğu Ərəbocağı kənd tam orta məktəbAnchorinin şagirdlərinin ifasında ədəbi-bədii kompazisiya nümayiş olunmuşdur.İdrisov Xəyal İbrahim oğlu 24 fevral 2000-ci il tarixdə Ağdaş rayonunun Ərəbocağı kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunda müddətdən artıq hərbi qulluqçu kimi xidmət edən cavuş Xəyal İdrisov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan Vətən müharibəsində iştirak etmiş, Ağdərə-Tərtər istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş, oktyabrın 11-də Ərəbocağı kənd qəbiristanlığında dəfn edilmişdir. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.





### Gədəbəy

44 günlük Vətən müharibəsində Şəhid olan Gədəbəy rayonunun Fərzalı kənd sakini Teymurlu Orxan Şaiq oğlunun ikinci ildönümü münasibətilə YAP Gədəbəy rayon təşkilatının sədr müavini, Gədəbəy rayon İH Başçısı aparatının məsul işçiləri,hüquq-mühafizə orqanları və kənd camaatının iştirakı ilə məzarı ziyarət olundu, ruhuna dualar oxundu, əziz xatirəsi böyük ehtiramla yad edildi. Şəhid atası dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevə,Birinci Vitse-Prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildirdi. Allahdan bütün Şəhidlərimizə rəhmət diləyir, onları dərin ehtiramla anır, ruhları qarşısında baş əyirik!



### Nəsimi

Nəsimi rayonunda da anım tədbiri keçirilib. Vətən müharibəsi şəhidi Kərimli İsmayıl Ceyhun oğlunun doğum günü qeyd olunub. Vətən Müharibəsi bizim şanlı tariximiz, şəhidlər və qazilər qürur mənbəyimizdir. Xalqımız və dövlətimiz qəhrəman övladlarının şücaətini daim yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna ehtiramla yanaşır, xatirəsini uca tutur.Müstəqil Azərbaycanımızın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən Müharibəsi şəhidlərinin ailələrinə, qazilərinə Nəsimi rayonunda da daim yüksək həssaslıqla yanaşılır, diqqət və qayğı göstərilir.Vətən müharibəsi şəhidi Kərimli İsmayıl Ceyhun oğlunun ad günü ilə əlaqədar rayon İcra Hakimiyyəti başçısı Asif Əsgərov, YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, rayon ictimaiyyəti və şəhidin ailə üzvlərinin iştirakı ilə şəhidin əziz xatirəsi dərin hörmət və ehtiramla yad olunub, məzarı üzərinə gül-çiçək dəstələri düzülüb.

Sonra şəhidin adına ehsan məclisi təşkil edilib. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.



### Yasamal

Yasamal rayonunda da şəhid məzarları ziyarət olunub. YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Yasamal rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Yasamal rayon Bələdiyyəsinin sədri Tahir Məmmədov, YAP Yasamal rayon təşkilatının və Yasamal rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon İdarəsinin rəisi polkovnik-leytenant Ramin Şükürov, şəhidin ailə üzvləri, yaxınları və Yasamal rayon ictimaiyyəti tərəfindən İkinci Fəxri Xiyabanda 44 günlük Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Mustafayev Nurlan Hamlet oğlunun məzarı ziyarət olunaraq, dərin ehtiramla yad edilib, ruhuna dualar oxunub.



Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə bildiriblər.Qeyd edək ki, Cənab Prezident İlham Əliyevin Sərəncamına əsasən, Mustafayev Nurlan Hamlet oğlu ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib. Allah şəhidlərimizə rəhmət eləsin!

***Nəzakət Ələddinqızı***

# GƏNCƏ TERRORU:
# Ermənin faşizminin əsl siması!

**İLHAM ƏLİYEV: "Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir"**




İnsanı insan edən, onu digər canlılardan fərqləndirən yaddaşdır. Yaddaş tarixi məkanda və tarixi zamanda insan mənliyinin, insanda insanlığın atributudur. Manqurtlaşma, anadangəlmə irsi amneziya təhlükəsi də məhz yaddaşın olmadığı şəraitdə özünü büruzə verir. Bu erməni deyilən manqurtlaşmış cinayətkarlara məxsusdur. Bəli, manqurtlaşmış insanlıqdan uzaq olan erməni faşizminin Vətən müharibəsi dövründə Gəncə şəhərinin ilk raket hücumuna məruz qalmasından iki il ötür.2020-ci il oktyabrın 4-də, saat 10 radələrində Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub. Cenevrə Konvensiyasının tələbləri pozulmaqla, cəbhə zonasından kənarda yerləşən Azərbaycan Respublikasının ikinci böyük şəhəri, beş yüz mindən çox dinc əhalinin yaşadığı Gəncə şəhərinin raket atəşinə tutulması nəticəsində şəhər sakini Əliyev Tunar Qoşqar oğlu həlak olub, 32 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb. Şəhərin infrastrukturuna, yaşayış evlərinə külli miqdarda ziyan vurulub. Qeyd edək ki, Azərbaycanın ikinci böyük şəhəri Gəncə 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumlarına məruz qalıb. Ümumilikdə, bu dəhşətli terrorlar nəticəsində 26 nəfər həlak olub, 175 nəfər yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Eyni zamanda, Azərbaycanın digər böyük şəhəri olan Bərdədə törədilmiş terror nəticəsində 29 nəfər həlak olub, 112 nəfər yaralanıb.Ümumilikdə Ermənistan hakimiyyətinin tapşırığı əsasında təkcə Gəncə və Bərdə deyil, eyni zamanda, Yevlax, Beyləqan, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Xızı və digər şəhər və rayonlarımız ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulub. Bu hərbi təcavüzlər nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla, 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb, ümumilikdə 12292 yaşayış və qeyri-yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəyib.Burada xüsusilə xatırlatmaq yerinə düşər ki, sentyabrın 27-dən başlayan müharibədə ağır məğlubiyyətə uğrayan Ermənistan ordusu onun rəhbərliyinin, o cümlədən, Baş nazir Nikol Paşinyanın ağ bayraq qaldırmasından, onun dünya liderlərinə yalvarmasının nəticəsi olaraq Azərbaycanla Ermənistan arasında humanitar məqsədli müddətli atəşkəs rejiminin bərqərar olmasından sonra bu addımı atdı.

## Ermənistanın hərbi-siyasi rəhbərliyi bəşəri dəyərləri, humanizm prinsiplərini ayaqlar altına atır

İşğalçı Ermənistan hər zaman olduğu kimi, bu dəfə də öz yırtıcı, insanlıq əleyhinə cinayətlərini davam etdirir. Düşmən ölkənin silahlı qüvvələri həm cəbhə bölgəsinə yaxın, həm də cəbhə bölgəsindən uzaqda yerləşən rayon və şəhərləri, yaşayış məntəqələrini atəşə tutmaqda davam edir. Bununla da Ermənistanın hərbi-siyasi rəhbərliyi bəşəri dəyərləri, humanizm prinsiplərini ayaqlar altına atır, beynəlxlq qanunvericiliyi, Cenevrə konvensiyalarının tələblərini kobud şəkildə pozur. Qeyd etdiyimiz kimi, erməni faşizminin növbəti təzahürü olan bu cinayətkar əməldən ən çox zərər görən regionlardan biri də döyüş bölgəsindən xeyli uzaqda yerləşən Gəncə şəhəridir. Sentyabrın 27-dən bu günə qədər Ermənistan tərəfi hərbi cinayət törədərək Gəncəni həmin dövrlər Ermənistan silahlı qüvvələri cəbhə bölgəsindən xeyli aralıda yerləşən Azərbaycanın ikinci böyük şəhərini 5 dəfə ayrı-ayrı vaxtlarda raket atəşinə tutdu.Birinci hücum: Oktyabrın 4-də birinci dəfə atılan raketlərin törətdiyi dağıntılara görə Azərbaycan tərəfi məsuliyyəti Ermənistanın daşıdığını bildirsə də, qarşı tərəf bu ittihamı rədd etdi. Hücuma görə məsuliyyəti keçmiş Dağlıq Qarabağın rəsmiləri öz üzərlərinə götürdülər. Onlar hədəfin insanlar yox, şəhərdə olan hərbi təyinatlı binalar, habelə Gəncə Beynəlxalq Hava Limanı olduğunu bildirdilər. Halbuki Gəncədə ümumiyyətlə, hərbi təyinatlı binalar yox idi və bu gün də yoxdur.Qeyd edək ki, həmin gün atılan üç raket zərbəsi nəticəsində bir nəfər həlak olmuş, 36 nəfər müxtəlif bədən xəsarətləri almışdır. Şəhərin Nəriman Nərimanov, Əziz Əliyev, Əli Nəzmi və digər küçələrində yerləşən evlər tamamilə dağılmış, nəqliyyat vasitələrinə ciddi ziyan dəymişdir.İkinci hücum: Oktyabrın 5-də Ermənistan tərəfindən atılan növbəti raketlər Gəncənin "Grand Qafqaz" Ticarət Kompleksinə düşdü. Səhər saatlarında atılan 3 raket zərbəsi nəticəsində 3 nəfər müxtəlif bədən xəsarəti ilə xəstəxanaya yerləşdirildi. Şah İsmayıl Xətai prospektində yerləşən ticarət mərkəzinə külli miqdarda ziyan dəydi. Bundan başqa, "İmamzadə" dini kompleksində də dağıntılar oldu.Üçüncü hücum: Oktyabrın 8-də ermənilər Gəncəyə üçüncü raketi atdılar. İnsanların şirin yuxuda olduğu vaxt endirilən zərbə nəticəsində ölən və yaralanan olmasa da, evlərə və nəqliyyat vasitələrinə ciddi ziyan dəydi. Gecə saat 3 radələrində atılan raket Həsən Əliyev və Pərviz Səmədov küçələrində yerləşən qeyri-yaşayış sahəsində xeyli dağıntı törətdi, bir avtomobil tamamilə yararsız hala düşdü. Bundan başqa, 1887-ci ildə xeyriyyə vəsaiti ilə inşa edilmiş Aleksandr Nevski Rus Pravoslav Kilsəsinə də ziyan dəydi.Dördüncü hücum: Oktyabrın 11-də yerli vaxtla saat 02:00-da atılan raketlər şəhərdə böyük dağıntılar törətdi. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, şəhər Ermənistanın Berd rayonunda yerləşən erməni silahlı qüvvələri tərəfindən "Skad" tipli ballistik raketlərlə atəşə tutulmuşdur. Raketlər yaşayış ərazisinə düşmüş və ətrafda olan bütün binaları dağıtmışdır. Böyük dağıntılar törədən raket 31 mənzili tamamilə uçurmuş, hadisə yerində və onun yaxınlığındakı obyektlərə ciddi ziyan vurmuşdur. Hücumdan ümumilikdə 205 nəfərin yaşadığı 95 mənzil qəzalı vəziyyətə düşmüşdür. 10 nəfər həlak olmuş, 34 nəfər yaralanmışdır.

Beşinci hücum: 17 oktyabrda, təxminən yerl vaxtla 01:00-da ermənilər yenə "Skad" ballistik raketləri ilə Gəncəni atəşə tutdular. Aida İmanquliyeva və Samir Xasıyev küçələrinə düşən raket zərbələri nəticəsində böyük dağıntı oldu. Çünki raketlər əhalinin sıx yaşadığı əraziyə düşmüşdü. Bu zaman xeyli sayda müxtəlif yaşayış evləri və digər tikililər ziyan gördü. Hadisə zamanı 20 ev dağılmış, xeyli sayda mülki şəxs dağıntının altında qalmışdır. Hücum nəticəsində 15 nəfər həlak olmuş, 54 nəfər yaralanmışdır.Beləliklə, Gəncə şəhərinə atılmış raket zərbələri nəticəsində 6-sı uşaq və yeniyetmə olmaqla, ümumilikdə 26 nəfər həlak olmuş, 29-u uşaq olmaqla, ümumilikdə 130-a yaxın insan müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Bu hadisələr zamanı 3 ailənin üzvü olan 4 uşaq hər iki valideynini itirmişdir.Bəli, erməni faşistləri insanlığa sığmayan bu cür əməlləri ilə beynəlxalq norma və prinsipləri kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməlləri törətmişdir.Buna baxmayaraq, tutduğu cinayət hadisələrini ört-basdır etməyə çalışan Ermənistan KİV-də, eləcə də sosial şəbəkələrdə törətdiyi cinayətləri pərdələməyə, həmin əməllərdən boyun qaçırmağa yönələn xəbərlər yaymağa başlaşdı. Lakin hadisə yerlərindən yerli və xarici medianın yaydığı foto və videogörüntülər bu yalanları ifşa etdi.Bütün xalqımız, o cümlədən gəncəlilər də yaxşı başa düşürdülər ki, Azərbaycanın haqq davasında ermənilərin törətdikləri bu cinayətlər suda boğulanın saman çöpündən yapışmasıdır. Məhz buna görə Ermənistanın Gəncəni raket atəşinə tutması sakinlər arasında ruh düşgünlüyü yaratmadı. Əksinə, gəncəlilər bir daha əmin oldular ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu tezliklə düşmən üzərində qəti qələbə qazanacaq.Gəncədə dinc sakinlərin raket atəşinə tutularaq qətlə yetirilməsi düşmənin nə qədər qəddar və məkrli olduğunu bir daha sübut etdi. İşğalçılar beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyasının müddəalarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozmaqla dinc əhalini hədəfə almış, yaşlılara və azyaşlı uşaqlara qarşı soyqırımı törətmişlər. Humanitar atəşkəsin imzalandığı vaxtdan cəmi 14 gün sonra Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə uzaqvuran ballistik raketlərin atılması nə müharibə qanunlarına, nə də insanlığa sığan bir cinayət idi. Amma o da məlum idi ki, Ermənistanın bu əməlləri cəbhədəki uğursuzluqlarının nəticəsidir. 44 gündə müzəffər Azərbaycan Ordusu irəlilədikcə, döyüşlərdə qələbələr qazandıqca düşmən öz məkrli niyyətini bu yolla həyata keçirməklə məğlubiyyətlərini ört-basdır etməyə çalışırdı.

## Azərbaycanın haqq işi dünya mətbuatında

Lakin bu cinayətə xarici jurnalistlər də susmadı. Ukraynalı jurnalist Yuri Butusov dağılmış evləri görərkən demişdir ki, bu, çox təsiredicidir: "Mən burada gördüklərimi ömrüm boyu unutmayacağam". Ukraynalı digər jurnalist Taras Berezovets isə bildirmişdir ki, işğalçı ermənilərin Qarabağdakı cinayətlərinin sübutlarını toplamaq çox vacibdir: "44 günlük müharibə haqqında çox oxumuşam. Elə mən özüm də bu barədə dəfələrlə yazmışam. Ancaq burada gördüklərim məni heyrətə gətirdi".Rusiyalı siyasətçi və jurnalist Maksim Şevçenko da Gəncəyə səfəri çəçivəsində ermənilərin atdıqları ballistik raketlərin dağıtdıqları ərazilərdə olarkən dinc əhaliyə raket hücumunu terrorun qatı nümunəsi kimi dəyərləndirmişdir: "Bu əməllərin məqsədi mülki sakinlərin öldürülməsi və şəhərdə miqyaslı dağıntılar törədilməsi yolu ilə kütləvi vahimə yaratmaq olub. Lakin bu xain hücumlar əks nəticə verdi. Azərbaycanlılar bunun cavabını öz doğma torpaqlarını qaytarmaq üçün açdıqları hərb meydanında verdilər, terror hücumlarından ölənlərin də əvəzinə vuruşub, onların da qisasını aldılar".

## Ermənistan terror, faşist dövlətidir

Azərbaycan Prezidenti İlham Əliyev "Haber Global" telekanalına müsahibəsində bildirib ki, biz qara təbliğatla uzun illərdir ki, üzləşirik. Dövlət başçısı deyib ki, bunun bir neçə səbəbi var, onlardan biri də bəzi ölkələrdə erməni diaspor təşkilatlarının fəaliyyətidir: "Onların fəaliyyətinin hədəfində Azərbaycan dayanır. Azərbaycanı ləkələmək, Azərbaycan haqqında yalanlar yaymaq və beləliklə, ölkəmizin imicinə zərbə vurmaq məqsədləri daim onların gündəylindən olan məsələlərdir".

## Ermənilərin cinayətləri cəzasız qalmayacaq

Bu itkilər nə qədər ağır, ağrılı olsa da, xalqımızın mübarizlik ruhunu qıra bilməz. Vətəndaşlar yüksək vətənpərvərlik, həmrəylik, qətiyyət, mübarizə əzmi və sarsılmaz iradə nümayiş etdirir, milli ordumuzun uğurlarına və zəfər yürüşünə hərtərəfli dəstək göstərirlər. İnsanlar Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşərək, dövlət başçımızın qəbul etdiyi qərarları tam dəstəkləyir, Ona dərin etimad göstərir, arxasında durduqlarını bəyan edirlər..Bu gün Ermənistan tərəfindən hərbi cinayətə və dövlət səviyyəsində həyata keçirilən terror siyasətinə məruz qalmış Gəncə əhalisi, ümumilikdə bütün xalqımız heç vaxt olmadığı kimi nikbindir, torpaqlarımızın azad olunması uğrunda aparılan hərbi əməliyyatların məntiqi sonluğadək davam etdirilməsini istəyir və tələb edir. Əminliklə demək olar ki, bu gün Gəncə Ermənistanın dövlət terrorizmi və vandalizminə qarşı müqavimət rəmzinə çevrilib. Şübhə yoxdur ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi törətdiyi hərbi cinayətlərə görə cavab verməlidir və verəcək. Azərbaycan xalqına qarşı törədilmiş hərbi cinayətlərə görə Ermənistan döyüş meydanında böyük itkilərə məruz qalır, mülki əhalimizə qarşı qatı qəddarlığın qisası düşməndən alınır. Hazırda Ermənistan Ordusu bütün müqavimət imkanlarını itirib, nizamsız dəstələrə parçalanıb, şəxsi heyət arasında böyük ruh düşgünlüyü, inamsızlıq hökm sürür. Ermənistan hakimiyyəti və ordu rəhbərliyi prosesi idarə etmək imkanında deyillər. Bütün bunların fonunda beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlərə laqeyd qalmamalı, bu ölkənin cinayətkar rəhbərliyi məsuliyyətə cəlb olunmalı və törətdiyi qəddar əməllərə görə cavab verməlidir. Əgər bunu beynəlxalq birlik etməyəcəksə, Azərbaycan özü cinayətkarları cəzalandıracaq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

# Məktəbəhazırlıq qruplarına necə qeydiyyatdan keçməliyik?

**Məktəb müasir cəmiyyətdə uşaqların təhsil almaq hüquqlarını təmin etməkdə əsas rol oynayır. Bəs, məktəbəhazırlıq qruplarına necə qeydiyyatdan keçməliyik? Mövzu ilə bağlı SİA-nın sorğusuna Bakı Şəhəri üzrə Təhsil İdarəsinin mətbuat xidmətindən məlumat verilib.**



### Məktəbəhazırlıq qruplarının fəaliyyət göstərəcəyi ümumtəhsil müəssisələri

* Məktəbəhazırlıq qrupların fəaliyyət göstərdiyi ümumtəhsil müəssisələrinin tam siyahısı

### Məktəbəhazırlıq qruplarının məqsədi

* 5 yaşlı uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar psixoloji dayanıqlığını artırmaq;
* Əhatə olunduqları aləmə və təhsil mühitinə uyğunlaşdırmaq;
* Ünsiyyət və birgə fəaliyyət bacarıqlarına yiyələnməsini təmin etmək.
* Məktəbəhazırlıq təhsili ibtidai təhsilə keçidi asanlaşdırır və uşağın ibtidai təhsilə adaptasiya olunmasına müsbət təsir edir.

### Məktəbəhazırlığın uşaqların zehni inkişafına təsiri

* Məktəbəhazırlıq təhsilinə cəlb olunmuş uşaqlar cəlb olunmayanlarla müqayisədə daha yüksək akademik göstəricilər əldə edir.
* Təhsil İnstitutunun araşdırmasına əsasən, məktəbəhazırlığı keçən uşaqlar digərləri ilə müqayisədə Ana dili və riyaziyyat imtahanlarında daha yaxşı nəticə göstərirlər.
* Məktəbəhazırlıq təhsili uşaqların əqli, fiziki, sosial-emosional və nitq qabiliyyətini, eləcə də kommunikativ, oyun və digər bacarıqlarını inkişaf etdirir.

### Uşaqların yaş həddi

* Dövlət ümumi təhsil məktəblərində yaradılmış məktəbəhazırlıq qruplarına 5 yaşı həmin il tamam olmuş uşaqlar qəbul olunurlar.

### Məktəbəhazırlıq qruplarında təhsil ödənişsizdir

* Məktəbəhazırlıq qruplarında təhsil dövlət hesabına həyata keçirilir.
* Bu qruplar dövlət vəsaiti hesabına müvafiq təlim və metodiki vəsaitlərlə təmin edilib.

### Məşğələlərin müddəti

* Həftədə 4 gün olmaqla, 12 məşğələ;
* Bir gün ərzində 3 məşğələ;
* Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə
* Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.

### Keçirilən məşğələlər

1. Ətraf aləmlə tanışlıq
2. Savad təliminə hazırlıq və nitq inkişafı
3. Bədii təfəkkürün inkişafı
4. Məntiqi və riyazi təfəkkürün inkişafı
5. Təsviri fəaliyyət
6. Musiqi
7. Fiziki mədəniyyət



### Ev tapşırığı

* Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar üçün ev tapşırıqları nəzərdə tutulmur.

### Qiymətləndirmə

* Uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir.
* Məktəbəhazırlıq qruplarında davamiyyət müvafiq sinif jurnalında qeyd edilir.

### Dərs ilinin müddəti

* Dövlət ümumi təhsil məktəblərində yaradılan məktəbəhazırlıq qruplarında məşğələlər hər il oktyabrın 1-də başlanır və mayın 31-də başa çatır.
* I yarımil: 1 oktyabr-26 yanvar;
* II yarımil: 1 fevral-31 may.

### Məktəbəhazırlıq qrupları üçün tətillər

* 5 gün payız tətili (16-20 noyabr);
* 5 gün qış tətili (27-31 yanvar);
* 5 gün əlavə tətil (1-5 may).

### Müəllimlər

* Diaqnostik qiymətləndirmədə yüksək bal toplamış, səriştəli, əsasən 4-cü sinifdə tədris aparan müəllimlər seçilir. Bu da növbəti tədris ilində birinci sinfə gedəcək şagirdlərin adaptasiya olunması üçün körpü rolunu oynayır.
* Məktəbəhazırlıq qruplarında işləyən müəllimlər öyrədici təlimlərə cəlb olunurlar.

### Uşaqların say həddi

1. Qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 10 uşaq;
2. Şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 15 uşaq;
3. Dövlət ümumtəhsil məktəblərində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.

### Məktəbli forması

* Məktəbəhazırlıq qruplarına cəlb olunan uşaqlar üçün məktəbli forması tətbiq edilmir.

### Məktəbəhazırlıq qruplarına getməyən uşaqlar üçün məhdudiyyət

* Məktəbəhazırlıq qruplarına getməyən uşaqların I sinfə qəbuluna heç bir məhdudiyyət qoyulmur.

### Sənəd qəbulu

* Rayonlar üzrə ümumtəhsil müəssisələrində məktəbəhazırlıq qruplarına sənəd qəbulu hər il avqustun 15-dən sentyabrın sonunadək aparılır.
* Bakı şəhərində məktəbəhazırlıq qruplarına sənəd qəbulu isə mektebeqebul.edu.az saytı vasitəsilə həyata keçirilir. Məktəbəhazırlıq qruplarına elektron sənəd qəbulu 01.08.2017-ci il tarixdən 18.09.2017-ci il tarixədək həyata keçirilir. Məktəbəhazırlıq qruplarına elektron qeydiyyatdan keçdikdən sonra lazımı sənədlərlə birlikdə 15.08.2017-ci il tarixdən 30.09.2017-ci il tarixədək məktəbə müraciət etmək lazımdır.

### Tələb olunan sənədlər

1. Uşağın şəxsiyyətini təsdiq edən sənədin əsli və surəti (uşağın şəxsiyyət vəsiqəsi olmadığı halda doğum haqqında şəhadətnaməsi; Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi; Birləşmiş Millətlər Təşkilatının Qaçqınların İşləri üzrə Ali Komissarlığının Himayə Sənədi; Xarici doğum haqqında şəhadətnamə (Azərbaycan dilinə tərcümə olunmuş variantda));
2. Uşağın mübadilə vərəqi (sağlamlıq haqqında arayış-forma 26U);
3. 2 (iki) ədəd 3x4 ölçüdə rəngli fotoşəkil;
4. Məktəb direktorunun adına ərizə; Yalnız Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil məktəblərində valideynin (digər qanuni nümayəndənin) "Şəxsi kabinet"indən çap olunmuş "Ərizə"

### İnternat məktəblərində təhsil alan uşaqlar üçün məktəbəhazırlıq qrupları

* Ümumtəhsil proqramı ilə təhsilin təşkil edildiyi internat məktəblərində də məktəbəhazırlıq qrupları fəaliyyət göstərir. (Bakı şəhəri 11 və 10 nömrəli internat məktəbləri)

### Məktəbəhazırlıq qruplarının fəaliyyət göstərdiyi şəhər və rayonlar

* Məktəbəhazırlıq qrupları ölkənin bütün şəhər və rayonlarında, ancaq müvafiq maddi-texniki bazası və kadr potensialı olan məktəblərdə təşkil olunur.

### Məktəbəhazırlıq qruplarına cəlb olunan uşaqların sayı

* Məktəbəhazırlığın təşkili "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulduğu kimi mərhələli prosesdir.
* Məktəbəhazırlıq təhsilinin əhatəsi 2016-cı ildə 2016-2017-ci tədris ilində ölkə üzrə 55 faizə çatıb.
* Məktəbəhazırlıq qrupları ölkə üzrə 2.795 dövlət məktəblərində təşkil olunub.
* Məktəbəhazırlıq təhsilinə 4.410 məktəbə hazırlıq qrupuna 86.970 uşaq və iş təcrübəsinə malik müəllim cəlb olunub.

*Ayşən Vəli*

ANALİTİK+AKTUAL

# Rusiya-Ukrayna müharbəsi: bu “xəmir” hələ çox su aparacaqmı?

## Bəşəriyyətə nüvə qiyaməti, yaxud apokalipsisi təhdidi artır!

***Bir neçə gün əvvəl Ukrayna ordusunun Krım körpüsünü partlatması və sözügedən məsələ ətrafında müxtəlif müzakirələrin, iddialarının irəli sürülməsi, əslində bu ”xəmirin” hələ çox su aparacağı siqnallarını verməkdədir. Müxtəlif analitik mərkəzlər və konfliktoloqlar baş verən, eləcə də bir-birini tez-tez dəyişən təzadlı rəylərini irəli sürsələr də, faktiki olaraq bu kimi ehtimallar gerçəkliyə qalanda müharibənin qurbanlarının sayının azalmasına heç bir təsirlərini göstərmir.***



### Bütün bunlar Krım körpüsünün partladılmasından başladı...

Məsələn, iddia edənlər var ki, Rusiya Federasiyası ərazilərinə aid materik hissəni birləşdirən Krım körpüsünü məhz Rusiyaya məxsus diversiya qrupları partladıb. Daha dəqiq desək, son vaxtlar Ukrayna silahlı qüvvələrinin (USQ) cəbhə xətti boyunca uğurlu əməliyyatlar keçirmələri, daha əvvəl Rusiya silahlı qüvvələri (RSQ) tərəfindən nəzarətə alınmış ərazilərin sonradan uğurlu əməliyyatlar hesabına yenidən USQ-nin nəzarətinə keçməsi situasiyanın gərginləşəcəyi ehtimallarını artırırdı və artdı da...

Kiçik bir haşiyə çıxaraq onu da deyə bilərik ki, Krım körpüsünün partladılmasının arxasında Rusiyaya məxsus xüsusi xidmət orqanlarının, yaxud Federal Təhlükəsizlik Xidmətinin (FTX) dayanmasının mümkünlüyünü sübut edən daha bir iddia kimi körpü üzərində detonasiya səbəbi ilə partlayan yük maşınının Ermənistan, Bolqarıstan və daha bir neçə ölkə ərazisindən yoxlamalarla keçməsi göstərilir. Yəni həmin yük maşınının FTX tərəfindən yoxlanılması, əslində həmin maşına xüsusi xidmət orqanları tərəfindən detonatorların yerləşdirilməsi iddiası ilə əvəzlənməkdədir. Ancaq bütün bunlar araşdırılır və yekun nəticə hələ ki, yoxdur.







### Raketlərdən biri Ukraynanın prezidenti Vladimir Zelenskinin iqamətgahının yaxınlığına düşüb -G7 təcili toplanacaq!

Amma fakt budur ki, artıq Rusiya körpünün partladılmasını məhz USQ-nin üzərinə qoymağa cəhd edir və bunun nəticəsidir ki, artıq ötən gecədən və 10 oktyabrın səhər saatlarından başlayaraq Rusiya Ukraynanın paytaxtı Kiyevin mərkəzi də daxil olmaqla digər şəhərlərini, infrastrukturlarını, enerji resurslarına aid obyektlərini qanadlı raket zərbələri ilə darmadağın etməkdədir. Hətta raketlərdən biri Ukraynanın prezidenti Vladimir Zelenskinin iqamətgahının yaxınlığına düşüb. Təəssüf ki, bu raketlərin yüksək dəqiqliklə idarəolunan silah olması barədə fikirlər bildirilsə də, onlar mülki obyekləri də vururlar. Artıq mülki insanlar arasında ölənlərin və yaralananların sayları onlarla ölçülməyə başlayıb.

”Rusiyanın Ukrayna şəhərlərinə heç bir raket hücumu cavabsız qalmayacaq”. Bunu Ukrayna prezidenti Vladimir Zelenski deyib. ”Və bu gün mən Ukraynanın Rusiya tərəfindən davamlı, ağır atəşə məruz qalan bütün şəhərlərimizin sakinlərinə ayrıca müraciət etmək istəyirəm. Kiyevə, Xarkova, Nikolayevə, Donbasın bütün şəhərlərinə, Dnepropetrovsk vilayətinə, Zaporojye vilayətinə... Həyatın məhv edilməsinin və həyata normallıq verən hər şeyin məhv olunmasının daimi dəhşətini yaşayan hər kəsə...Biz bu zərbələrin heç birini cavabsız qoymayacağıq”, deyə Zelenski vurğulayıb. Qeyd edək ki, Zelenski Almaniya Bundestaqına müraciət edərək təxirə salınmadan G7 ölkələrinin təcili toplanmalarını istəyib.

### Ukraynalı general hamını sığınacaqlara sığınmağa çağırır

O da bildirilib ki, Rusiya paralel olaraq zərbə PUA-larından istifadə etməklə də Ukrayna ərazisinə kütləvi zərbələr endirir. Təkcə oktyabrın 10-da səhər saatlarında Rusiya Ukraynaya 75 raket zərbəsi endirib. Onlardan 41-i Ukrayna hava hücumundan müdafiə sistemi (AD) tərəfindən zərərsizləşdirilib. Bu barədə isə Ukrayna Silahlı Qüvvələrinin Komandanı, general Valeri Zalujnı məlumat verib.

”Terrorçu ölkə Rusiya Federasiyası Ukrayna ərazisinə zərbə PUA-larından istifadə edərək kütləvi raket və hava zərbələri endirir. Səhər saatlarında təcavüzkar artıq 75 raket atıb (sonradan raketlərin say statistikası artıb-R.R.) Onlardan 41-i hava hücumundan müdafiəmiz tərəfindən zərərsizləşdirilib. Silahlı Qüvvələr həmvətənlərini qorumaq üçün əllərindən gələni edirlər. Lakin düşmənin hücumu davam edir. Mən hamını sığınacaqlara sığınmağa çağırıram!”, deyə general əlavə edib.

Bu arada Ukraynanın elm və təhsil naziri Sergey Şkarleta bildirib ki, ölkənin bütün təhsil müəssisələri məsafəli təhsilə keçir və ölkənin kütləvi raket zərbələrinə məruz qalması səbəbindən həmin proses oktyabrın 14-ə qədər davam edəcək. ”Düşmən yenidən paytaxt və regionlarımıza dağıdıcı zərbələr endirib. Bütün təhsil müəssisələrinin rəhbərlərinə və direktorlarına müraciət edirəm! Bizim məqsədimiz maksimal şəkildə təhsil prosesinin iştirakçılarını təhlükəsizliklə təmin etməkdən ibarətdir. Ona görə də xahiş edirəm qarşıdakı həftə boyu məsafəli təhsil sisteminə keçilsin”, deyə elm və təhsil naziri bildirib.

### Moldova təhlükə qarşısında - XİN Rusiyaya xəbərdarlıq etdi?

Ukrayna ərazilərinin qanadlı raket zərbələrinə məruz qalmaları ilə bağlı daha bir diqqətçəkən məqam: Moldovanın xarici işlər nazirliyi rəsmi şəkildə bəyan edib ki, üç qanadlı raket onların üzərindən keçib. Bu barədə rəsmi teleqram səhifələrində məlumat verən moldovalılar Rusiyanın onların hava məkanlarını pozduqlarını bəyan ediblər. ”Xəbər verildiyi kimi, Qara dənizdə üzən Rusiya hərbi gəmilərindən buraxılan üç qanadlı raket Moldovanın Kobasan (tanınmayan Dnestryanı) kəndi və Soroki şəhəri üzərindən keçib. ”Bzim hava məkanımızın pozulması əsla yolverilməzdir”, deyə bildirilən xəbərdə qeyd olunur ki, nəticədə Moldova Respublikasının infrastukrturlarına, xüsusilə ölkənin hava məkanında uçan mülki təyyarələrə təhlükə yaranıb.

### Beynəlxalq aləm Rusiyadan nə tələb edir?

Artıq beynəlxalq aləmdən də raket zərbələri ilə bağlı etiraz notaları verilməkdədir. Böyük Britaniyanın xarici işlər naziri Ceyms Kleverli ilə ukraynalı həmkarı Dmitro Kuleba arasında telefon danışığı olub. Bu barədə C.Kleverli tviterdə yazıb. O bildirib ki, tərəflər Britaniyanın Ukraynaya davam edən dəstəyi barədə fikir mübadiləsi aparıblar. ”Rusiyanın Ukraynanın mülki əhalisinin yaşadığı ərazilərə raket zərbələri endirməsi qəbuledilməzdir. Bu, Prezident Vladimir Putinin gücünün yox, zəifliyinin nümayişidir”, Britaniya xarici siyasət idarəsinin rəhbəri vurğulayıb.

Bənzər bəyanatlarla demək olar ki, bütün Qərb rəsmi siyasi dairələri, diplomatlar və siyasət adamları, habelə beynəlxalq təşkilatlar çıxış ediblər və sözügedən hücumların dərhal dayandırılması tələbini irəli sürüblər.

Lakin fakt budur ki, bu müharibə irəli sürülən çağırışlara rəğmən əsla dayanan deyil və xüsusilə Rusiya Ukraynada son vaxtlar üzləşdiyi uğursuzluqlarını ört-basdır etmək üçün bənzər hücumları davam etdirməsində niyyətli olduğunu gizlətmir. O da maraqlıdır ki, son həddin nüvə müharibəsinə doğru getdiyini inkar edən dairələr də artıq bu mümkünlüyü dilə gətirirlər. Əslində, Qərb-Rusiya, yaxud ABŞ-Rusiya savaşının hərarətinin artması təəssüf ki, ukraynalıların ağır vəziyyətlə üz-üzə qalmalarına səbəb olmaqdadır. Rusiyanın nüvə zərbəsi mümkünlüyünü etiraf etməsinin ardınca Pentaqonun da bu mümkünlüyü dilə gətirməsi və dərhal cavab zərbəsinin endiriləcəyi ətrafındakı bəyanatı isə necə deyərlər, ortadadır. Bu böhran həm də bəşəri böhrana doğru inkişaf edir və söz yox ki, baş verənlərin qarşısı alınmazsa dünyamızı daha böyük fəlakətlər, hətta belə desək - nüvə qiyaməti, yaxud apokalipsisi təhdid edir...

***Rövşən RƏSULOV***

# Azərbaycanda işsizlik məsələsi necə aradan qaldırılır?

**Müasir dünya məkanında dövlətlərin daxili siyasəti dövlətlərin sabitliyinə təhlükə yaradan və onların həlli üçün əməkdaşlıq tələb edən işsizlik, iqlim dəyişikliyi, epidemiyalar, iqtisadi böhran kimi problemlərin həlli ilə bağlıdır. Son üç onillikdə işsizlik təkcə inkişaf etməkdə olan ölkələrdə deyil, həm də inkişaf etmiş ölkələrdə ən mühüm problemlərdən birinə çevrilmişdir. İşsizlik kütləvi yoxsulluğa, maaşların aşağı düşməsinə gətirib çıxarır, sosial və siyasi sabitliyi təhdid edir.**

Avropa, Asiya və Amerikanın bir sıra ölkələrində işsizlik ciddi problem olaraq ən aktual məsələlərdən biri kimi gündəmdədir. Gənclərin işsizliyi müasir dünyanın ciddi problemlərindən biridir. Bir çox ştatlarda bu yeni problem deyil. Lakin bu, iqtisadi böhran kontekstində genişlənib və həm yüksək ixtisaslı universitet məzunları, həm də çətin həyat vəziyyətində olan gənclərin geniş təbəqəsini əhatə edir. Amma hər bir ölkədə işsizliyin müəyyən səbəbləri, onun səviyyəsi, nəticələri var. Digər fərq sosial-iqtisadi problemin həllində dövlətlərin həyata keçirdiyi məşğulluq siyasətinin özəlliklərindədir. Məhz buna görə də tam məşğulluğun təmin edilməsi və qorunub saxlanılması dövlətlərin makroiqtisadi siyasətinin prioritet məqsədi kimi qəbul edilir.



Qlobal işsizlik səviyyəsinin ən azı 2023-cü ilə qədər pandemiyadan əvvəlki səviyyədən yuxarı qalacağı gözlənilir deyə ekspertlər qeyd edir. 2019-cu ildə 186 milyon insan iş tapa bilməyib, bu gün isə rəqəmlər işsiz qalanların sayını 207 milyonu göstərir.

Qlobal işsizliyin ən azı 2023-cü ilin sonuna qədər böhrandan əvvəlki səviyyələrin üzərində qalacağı gözlənilir. Yoxsulluğun və bərabərsizliyin get-gedə hədsiz dərəcədə artması müşahidə olunur. Pandemiyanın əmək bazarlarına təsiri dünyanın hər bir bölgəsində hiss olunur. Canlanmanın ən ümidverici əlamətləri Avropa və Şimali Amerikada, ən az həvəsləndirici isə Cənub-Şərqi Asiya, Latın Amerikası və Karib hövzəsindədir.

Ekspertlər qeyd edirlər ki, bəzi hallarda, əvvəlki böhranlarda olduğu kimi, müvəqqəti məşğulluq pandemiyada bir növ amortizator rolunu oynayır. Böhran zamanı bir çox müvəqqəti iş yerləri bağlandı, lakin eyni zamanda daimi iş yerlərini itirənlər də daxil olmaqla digərləri yaradıldı. Orta hesabla müvəqqəti işçilərin sayı dəyişməz qalıb.

Qlobal Məşğulluq və Sosial Müdafiə Baxışları hesabatı həm milli, həm də beynəlxalq səviyyədə böhrandan inklüziv və insan mərkəzli sağalmanı təmin etmək üçün tövsiyələr verir.

Ukraynadakı müharibə səbəbi ilə qonşu Rusiyada da məşğulluq sektorunda çətinliklər yaranıb. Mütəxəssislər ölkədə işsizliyin yanvar-fevral ayları ilə müqayisədə 0,3% artaraq 4,4%- ə çatdığını açıqlayıb. İlin əvvəlindən müflis olan şirkətlərin sayının isə 4,5% artdığı bildirilib. İşsizliyin ən ağır olduğu ərazi Şimali Qafqaz olduğunu qeyd olunur. İşsizlik nisbəti kişilər üçün 8,2 faiz ikən, qadınlar üçün 12,5 faizdir.



15-24 yaş qrupunu əhatə edən gənc əhali arasında işsizlik səviyyəsi əvvəlki ayla müqayisədə 0,8 faiz bəndi azalaraq 18,0 faiz təşkil edib. Bu yaş qrupunda işsizlik səviyyəsi; Kişilər üçün 15,2 faiz, qadınlar üçün isə 23,3 faiz hesablanıb.

Avqust ayında məşğul əhalinin sayı isə əvvəlki ayla müqayisədə 366 min nəfər artaraq 31 milyon 14 min nəfər, məşğulluq nisbəti də 0,5 faiz bəndi artaraq 47,9 faiz olub. Bu göstərici kişilərdə 65,3 faiz olduğu halda, qadınlarda 30,8 faiz olub.

Azərbaycanda 2022 -ci ilin vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5 milyon 342.1 min nəfər olmuş, onlardan 5 milyon 034.3 min nəfərini məşğul əhali təşkil edib. İşsizlik səviyyəsi 5.76%-ə düşüb. Bu barədə Dövlət Statistika Komitəsindən bildirilir.

Qeyd edilir ki, işsizlərin sayı 400 nəfər (0.1%) ətrafında azalaraq 307.8 min nəfər təşkil edib. Bu da ölkədə içsizlik səviyyəsinin son ayda 5.78%-dən 5.76%-ə düşməsi deməkdir. Muzdla çalışan işçilərin sayı 1 milyon 720 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 901.2 min nəfər, qeyri-dövlət sektorunda isə 818.8 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 30.7 min nəfər, qeyri neft-qaz sektorunda isə 1 milyon 689.3 min nəfər çalışıb.

İşsizliyin səviyyəsi- (Minilliyin bəyannaməsində əks olunmuş inkişaf göstəricilərindən) -işsizliyin tərifi müəyyən dövr ərzində işi olmayan, lakin işləməyə hazır olan və muzdla və ya özüməşğulluq üzrə iş axtarmaq üçün konkret addımlar atan adamların hamısını əhatə edir. İşçi qüvvəsi işə malik olan, həmçinin müəyyən dövr ərzində işə malik olmayan adamları özündə birləşdirir.

Beynəlxalq Reytinq Agentliyi 2025-ci ilə kimi Azərbaycanda işsizliyin azalacağını proqnozlaşdırıb. Proqnoza əsasən, 2022-ci ildə ölkə üzrə işsizlik 5,0% (2021-ci il üzrə 5,7% göstərilib), 2023-cü il üzrə 4,9% təşkil edəcək. 2024 və 2025-ci il üzrə isə Azərbaycanda işsizlik 4,7% təşkil edəcək.

Bəzi iqtisadi təhlilçilər hesab edirlər ki, ölkədə karyera planlaşdırılmasında problemlər var. Dövlət Məşğulluq Agentliyi isə işaxtarma ilə bağlı müşahidə edilən problemləri aradan qaldırmaq üçün proqramlar hazırladıqlarını bildirirlər.

Peşəyönümü məsləhət xidmətlərinin hədəf qruplarına daha əlçatan olması üçün 2021-ci ilin fevral ayında "Alo, Karyera" məlumatlandırma xidmətini yaratdığını açıqlayıb. Bu xidmətin məqsədi iş axtaranlara karyera planlaması, məqsədlərin təyin olunması, ixtisas seçimi, əmək bazarı və iş axtarışı, rezümələrin hazırlanması, müsahibəyə hazırlıq və s. ilə bağlı məlumat və tövsiyələr verməkdir.

Dövlət Məşğulluq Agentliyi əmin edib ki, aktiv məşğulluq tədbirləri vasitəsilə əmək bazarının ehtiyaclarının qarşılanması üçün addımlar atılır. Qurum bu addımlara misal olaraq peşə hazırlıq məktəbləri yenidən qurulmasını və tələbata uyğun peşə hazırlığının aparılmasını göstərib və əlavə edib ki, bu il üç min nəfərin İSO beynəlxalq standartlarına uyğun mütəxəssis kimi hazırlaşdırılması hədəfdir.

***Havar Şəfiyeva***



# “Əliyev özünə, mövqeyinə arxayındır, məqsədinə çatacağını bilir”

## Sergey Markov: Putin, Əliyev və Paşinyan Astanada MDB Dövlət Başçıları Şurasında Ermənistan-Azərbaycan nizamlanması ətrafında vəziyyəti müzakirə edəcəklər



Rusiyanın nüfuzlu politoloqu, Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Praqa görüşünün yekunları, Azərbaycan və Ermənistan liderlərinin MDB dövlət başçıları Şurasının Astana sammiti barədə ”Moskva-Baku” portalına müsahibəsində maraqlı məqaçmlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Sergey Aleksandroviç, elə oldu ki, Praqadakı dördtərəfli görüşdən dərhal sonra İlham Əliyev və Nikol Paşinyan sentyabrın 7-də Vladimir Putinin təşəbbüsü ilə Sankt-Peterburqda MDB-nin qeyri-rəsmi sammitinə getdilər...***

- Birincisi, Vladimir Putin belə qeyri-rəsmi sammitlə Rusiyanın digər Birlik dövlətləri ilə əməkdaşlığı dərinləşdirməyə və gücləndirməyə yönəlmiş siyasətini göstərmək istəyirdi, ikincisi, MDB liderləri üçün Ukrayna ətrafında bundan sonra nələrin baş verəcəyini, regionu nə gözlədiyini öyrənmək vacib idi. Bundan əlavə, bəli, ənənəvi olaraq Əliyev və Paşinyan, adətən olduğu kimi, Avropa danışıqları barədə Putini xəbərdar edirdilər. Paşinyan Putinə dedi ki, ”Vladimir Vladimiroviç, Aİ danışıqlarına qoşulmaq heç bir halda Rusiyaya qarşı yönəlməyib”. İlham Əliyev də öz növbəsində izah etdi ki, Azərbaycan belə görüşlərə razıdır, danışıqlar aparır, lakin avropalı tərəfdaşların öz oyunlarını oynadığını yaxşı bilir.

Rəsmi Bakı çox gözəl bilir ki, Praqa görüşü Azərbaycanı aldatmaq, onların Ermənistanın tərəfində və Rusiyaya qarşı oynamaq cəhdidir. Əliyev Aİ-nin sərhəddəki mülki missiyası ilə razılaşıb, Azərbaycana təsir edəcək dərəcədə bu missiya ilə əlaqə saxlamağa hazır olduğunu bildirib. Özü də Azərbaycanın belə bir missiyaya ehtiyacı yoxdur. Amma Ermənistan üçün bu, onun müdafiəçilərinin olması üçün səbəb tapmaq, Aİ-ni Ermənistan-Azərbaycan nizamlanmasına sürükləmək üçün növbəti cəhddir. Rusiya nöqteyi-nəzərindən Cənubi Qafqazda belə bir missiyanın həyata keçirilməsi xəyanətdir. Putin isə təbii ki, bu prosesi dayandırmaq istəyir.

Şübhəsiz ki, Ermənistan sərhədində Avropa missiyasının fəaliyyətə başlamasından iki həftə keçdikdən sonra bunun daha uzun müddət qalmaqla bağlı olduğu və erməni tərəfinin bunun tərəfdarı olduğu barədə bəyanatlar veriləcək.

Cümə günü Astanada MDB dövlət başçılarının tamhüquqlu şurası keçiriləcək. Maraqlıdır ki, bundan əvvəl orada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi keçiriləcək və bu çərçivədə Putinlə Ərdoğan arasında görüş baş tuta bilər. Rusiya və Türkiyə liderləri Azərbaycanla Ermənistan, Türkiyə və Ermənistan arasında sülhə doğru hərəkat mövzusuna da toxunacaqlar. Həmçinin, Aİ-nin prosesə girmək cəhdlərinə. Həm Rusiya, həm də Türkiyə üçün Cənubi Qafqazda sülhün bərqərar olmasına nail olmaq vacibdir, çünki nizamlanma qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq imkanları açacaq.

Son vaxtlar Putin və Rusiyanın yüksək vəzifəli şəxsləri Qərbin qonşularla mübahisə etmək və MDB-yə nüfuz etmək cəhdləri mövzusuna toxunurlar. Rusiya üçün ABŞ və Avropa İttifaqının Zaqafqaziyaya nüfuz etməsinin qarşısını almaq vacibdir. Hamı yaxşı bilir ki, Qərb dövlətləri kiminsə ərazisinə gəlirlərsə, sülh üçün deyil, dövlətləri qarmaqlarına asmaq üçün gəlirlər. Ona görə də Putin və Ərdoğan Qərbin hərəkətləri mövzusunu da müzakirə edəcəklər.

Amma Astanada sammitində Putin Əliyev və Paşinyanla Qərbin hərəkətlərini müzakirə etməyəcək. Bu onun taktikası deyil. O, Rusiyanın nizamlanmanı irəli sürmək üçün nə edə biləcəyi barədə danışmağa üstünlük verir.

***- Çoxları diqqəti Praqa görüşündən çox "danışan" videogörüntülərə çəkdi - həm Əliyevlə Paşinyan arasında şəxsi təmaslar, həm də çoxtərəfli təmaslar...***

- Doğrudan da, İlham Əliyev özünü sözün əsl mənasında suda olan balıq kimi- sakit, inamlı hiss edirdisə, əksinə, Nikol Paşinyan çox gərgin görünürdü. Praqadakı bütün bu təmaslar Əliyevin gücünün, diplomatiyasının, aparıcı mövqeyinin və eyni zamanda dialoqa hazırlığının göstəricisi oldu. Və həmkarı özünü çox narahat hiss etdi. Əliyev özünə, mövqeyinə arxayındır, məqsədinə çatacağını bilir.

Bundan başqa, Əliyev-Ərdoğan tandemi də özünü çox parlaq və ahəngdar şəkildə göstərdi.

***- Ötən həftə Ermənistan mətbuatında guya Ermənistan və Azərbaycanın Aİ-nin vasitəçiliyi ilə sülh sazişi imzalayacağı və Rusiyanın buna razı olduğu barədə məlumatlar yayılıb.***

- Məncə, Rusiya buna qarşı olmaz. Eyni zamanda, indi bəzilərinin dediyi kimi, Rusiyanın Aİ-dən fərqli olaraq Cənubi Qafqazda sülh yolunda qeyri-ictimai şəkildə işləməsində problem görmürəm. Avropa İttifaqı isə Azərbaycan və Ermənistan arasında nizamlanması üçün hər şeyi etdiyini və uğur qazandığını göstərməyə çalışır. Amma elə deyil.

Müvəffəqiyyət Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına nail olmaqdır ki, bu halda da Qarabağ tamamilə Bakının nəzarətinə keçməlidir. Ermənistan sülh müqaviləsi imzalamağa hazırdır, ancaq o şərtlə ki, erməni icması üçün çox yüksək səviyyədə muxtariyyət müəyyən etsin.

Çox güman ki, Azərbaycan və Ermənistan yaxın vaxtlarda sülh müqaviləsi imzalaya bilməyəcək. Ən çox ehtimal olunan ssenari ondan ibarətdir ki, Ermənistan qeyri-konstruktiv davranışını davam etdirəcək, Azərbaycan isə 3 ildən sonra Rusiyanın Qarabağdakı sülhməramlı missiyasının mandatı başa çatdıqdan sonra Rusiyanın razılığı ilə qalan ərazilərini öz himayəsinə qaytaracaq. Bunun necə olacağı ilə bağlı onu deyə bilərəm ki, indi biz bunu əsasən Rusiya və KTMT-nin sərhəddə qondarma eskalasiyaya reaksiyasında gördük.

***- Praqa bəyanatında qeyd olunur ki, danışıqlar zamanı Ermənistan və Azərbaycan BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliklərini bir daha təsdiqləyiblər ki, onlar bir-birlərinin ərazi bütövlüyünü və suverenliyini qarşılıqlı şəkildə tanıyırlar.***

- Bu, heç bir şeyə təsir etmir. Bu, Ermənistanın 1990-cı illərdə Azərbaycan ərazilərini işğal etməsinə mane olmadı.

***- Bəs onda bu bəyanat niyə düzəldilmişdi?***

- Bəzi ümumi sənədlər var ki, onların təsbiti sülh gündəmini irəli apara bilər. Amma əslində Azərbaycan və Ermənistan ”ərazi bütövlüyünün qarşılıqlı tanınması” söz birləşməsini fərqli şərh edirlər. Azərbaycan üçün bu, Qarabağın tamamilə özününkü olması deməkdir. Ermənistan erməni icmasının taleyinə təsir etmək, ərazini ən azından müəyyən mənada özü üçün saxlamaq istəyir.

***- İndi Ermənistan Aİ-ni Cənubi Qafqaza sürükləməyə çalışanda belə görünür ki, Rusiya və Azərbaycan daha çox eyni tərəfdədir, yoxsa Rusiya ənənəvi olaraq tarazlıq yaratmağa çalışır?***

- Rusiya moderator kimi neytral qalmaq, bu vəziyyətdə hər iki tərəfə qarşılıqlı məqbul çıxış yolu tapmaqda kömək etmək istəyir. Bu yanaşma olduqca aydındır. Amma yenə də Rusiya və Azərbaycan daha çox Moskva, Bakı və İrəvanın üçtərəfli bəyanatının tezliklə həyata keçirilməsinin və dövlətlər arasında qarşılıqlı əlaqələrin inkişafının tərəfdarıdırlar.

***- Ermənistan parlamentinin spikeri Moskvada rusiyalı həmkarı ilə görüşdə bir daha bəyan etdi ki, KTMT sentyabrda Azərbaycan sərhəddindən Ermənistana qarşı eskalasiyaya toxunaraq, "üzvlərindən birinə qarşı təcavüzə operativ və effektiv cavab verə bilməyib"…***

- İstərdilər ki, Rusiya onların tərəfində vuruşsun və eyni axarda bəyanatlar verməkdə davam edəcəklər. Narazılıq əlaməti olaraq KTMT-ni tənqid edirlər, indi onlar KTMT-nin təlimlərində iştirakdan imtina edirlər.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” çərçivəsində hazırlanıb.

## “Bu ölkə verdiyi sözlərə və götürdüyü öhdəliklərə sadiq deyil”



“Prezidentin son Praqa səfəri və keçirilən görüşlər təkcə Avropa İttifaqı-Azərbaycan münasibətləri baxımından deyil, həm də ölkəmiz ilə Ermənistan arasında aparılan danışıqların yeni mərhələyə qədəm qoyması baxımından da olduqca əhəmiyyətli oldu”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə 5 saatdan artıq çəkən və 2 hissədən ibarət olan dördtərəfli görüşü üzərində xüsusi olaraq dayanmağa ehtiyac var: ”Postmünaqişə dövrünün reallıqlarına nəzər salsaq görərik ki, bu günümüzün əsas müzakirə mövzusu regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasında yeni səhifənin açılması üçün sülh müqaviləsinin imzalanmasıdır. Qeyd edim ki, kimin vasitəçiliyindən asılı olmayaraq Azərbaycan və Ermənistan arasında danışıqların keçirilməsi ölkəmizin mövqelərinin daha da möhkəmlənməsinə xidmət edir. Çünki danışıqlarda sıfır nöqtəsinə qayıtmaq artıq mümkün deyil və kimin vasitəçiliyindən asılı olmayaraq keçirilən görüşlər Ermnistan üzərinə yeni öhdəliklər qoyur. Başqa sözlə desək ortada Paşinyan tərəfindən imzalanmış üçtərəfli bəyanat var və orada nəzərdə tutulan öhdəliklər Brüssel formatında da təsdiqlənib və inkişaf etdirilib. Məhz bu amilləri nəzərə alaraq deyə bilərik ki, görüşdə Makronun iştirakı da Ermənistana üzərinə götürdüyü öhdəliklərdən qaçmaq imkanı tanımadı. Hər kəs Fransanın ənənəvi ermənipərəst siyasətini bilir və ona görə də belə hesab olunurdu ki, Praqada keçirilən dördtərəfli görüşdə Azərbaycana hansısa formada təzyiqlər göstərilə bilər. Paşinyan da düşünürdü ki, Fransa tərəfi Ermənistana dəstəyini açıq şəkildə bəyan edərək onun mövqeyini müdafiə edəcək. Amma gördüyümüz kimi nəticə etibarilə Azərbaycan indiyə qədər aparılan danışıqlarda sərgilədiyi mövqedən bir addım belə olsun geri çəkilmədi. Əksinə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü qəbul etməklə bağlı bəyanata imza atdı. Avropa İttifaqı Prezidenti Şarl Mişelin və Fransa prezidenti Makronun iştirakı ilə keçirilən görüşdə belə bir bəyanatın qəbul olunması isə o deməkdir ki, artıq dünya gücləri Azərbaycanın tarixi qələbəsindən doğan reallıqları qəbul edir.

Qeyd edim ki, əgər Ermənistanı özbaşına buraxsaq təbii ki, onlar bütün imkanlardan istifadə edərək aparılan danışıqları pozmağa cəhd göstərəcəklər. Elə Praqa görüşündən dərhal sonra Ermənistanın Kəlbəcər istiqamətində təxribatlara cəhd etməsi, mövqelərimizi atəşə tutması onu deməyə əsas verir ki, bu ölkə verdiyi sözlərə və götürdüyü öhdəliklərə sadiq deyil və Paşinyan görüşdə qəbul olunmuş bəyanatın altında atdığı imzasının yükünü hələ də dərk etmir. Eynilə 1991-ci ildə Alma-Ata bəyannaməsinə imza atdıqdan, yəni, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıdıqdan sonra necə imzalarına sadiq qalmadılarsa indi də faktiki olaraq eyni şeyi təkrar edirlər”.

***Abutel İlhamqızı***

SON SƏHİFƏ
SƏS
12 oktyabr
2022-ci il

# "Neymar əsl ağlayan uşaqdır"



Futbol üzrə Niderland millisinin sabiq hücumçusu Marko van Basten PSJ-nin braziliyalı ulduz futbolçusu Neymarı tənqid edib.

Qol.az xəbər verir ki, o, "The Sun"a açıqlamasında deyib: "Neymar əsl ağlayan uşaqdır, o, daim təxribat törədir. Bir saniyəyə qaydanı pozur, növbəti dəfə isə qurban kimi yenidən özünü göstərir. Ona toxunmağa icazə yoxdur. Meydanda xoşagəlməz bir insandır".

Qeyd edək ki, Neymar bu mövsüm bütün turnirlərdə 13 oyuna çıxıb, 9 qol vurub və 7 qolun ötürməsini verib.

## BİLİRSİNİZMİ?

İnsanın ürək ritmləri və mimikası qulaq asdığı musiqidən asılı olaraq dəyişir.

***

Göbəkdə 1458 yeni bakteriya növü aşkarlanıb.

***

Kosmosda astronovtlar 5 sm daha uzun olurlar.

***

İnsan gözü 10 min rəngi seçə bilir.

***

Fobiyalar əcdadların geni ilə gələ bilər.

# Sosial şəbəkələrdə dələduzluq edənlər barəsində hansı tədbirlər görülür?

Sosial şəbəkələrdə dələduzluq edən şəxslər artmaqdadır. Bəs bu şəxslər barəsində hansı tədbirlər görülür. Mövzu ilə bağlı Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev SİA-nın sorğusuna cavab olaraq bildirib ki, son dövrlər dələduzluqla məşğul olan bəzi şəxslərin sosial media və elan saytları üzərindən ticarət edən vətəndaşların satışa çıxardığı məhsulları guya almaq məqsədilə bank kartı məlumatlarının əldə edilməsi hallarına rast gəlinməkdədir. Özünün ölkədə olmadığını, həmçinin uzaq



məsafədə olduğunu əsas gətirərək ödənişi onlayn yolla edəcəyini bildirib bank kartı məlumatlarının əldə edilməsinin şahidi oluruq.

Onun sözlərinə görə, həmin şəxslər vətəndaşlara, xüsusilə sayta xarici nömrələrdən zəng edərək və "vatsap" vasitəsilə yazaraq guya alacağı məhsulun ödənişini etmək məqsədilə onların şəxsi bank kartı məlumatlarını əldə edirlər: "Daha sonra onlar vətəndaşların bank kartlarındakı məlumatları, yəni kart sahibinin adı, soyadı, kartın son istifadə tarixi, CVV nömrəsi və təsdiq kodunu ("3D secure") əldə etməyə çalışırlar. Həmin məlumatları əldə edəndən sonra dələduzlar tərəfindən kart sahiblərinin xəbərləri belə olmadan onların hesablarından onlayn ödənişlər həyata keçirilir və vəsaitlər mənimsənilir.

Bir daha vətəndaşları onlayn alış-veriş zamanı diqqətli olmağa çağırır və kibercinayətkarlıqla üzləşdikləri təqdirdə DİN-in "102 - Xidməti Zəng Mərkəzi" həmçinin sosial şəbəkələrdə polisazərbaycan rəsmi səhifələri vasitəsi ilə məlumat vermələrini xahiş edirik".

*Arzu Qurbanlı*

# Anasını öldürən 15 yaşlı oğlana hökm oxundu

**Bakıda anasını qətlə yetirməkdə təqsirləndirilən 15 yaşlı yeniyetmə barədə qərar verilib. Qafqazinfo xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Rasim Sadıxovun sədrliyi ilə keçirilən prosesdə hökm elan olunub.**

Hökmə əsasən, oğlanın əqli durumunda problem olduğu, buna görə də Respublika Psixiatriya Xəstəxanasına məcburi müalicəyə yerləşdirilməsi qərara alınıb.



Qeyd edək ki, hadisə bu ilin aprelində paytaxtın Nizami rayonunda qeydə alınıb. Bakıda "Neftçilər" metrosunun yaxınlığında 1985-ci il təvəllüdlü Ü.İsmayılova oğlu, 2007-ci il təvəllüdlü şəxslə mübahisə edib. Nəticədə oğul anasını qətlə yetirib. Ona qarşı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb.

# DİQQƏT:

## Oktyabrın 13-dək hava yağıntılı olacaq



**Oktyabrın 11-i gün ərzində Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyi əsəcək, sürəti arabir 15-20 metr/saniyə olacaq. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bildirilib ki, oktyabrın 11-i gündüzdən 13-ü səhərədək bəzi şərq rayonlarında şimşək çaxacağı, fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, oktyabrın 11-i və 12-si gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda sürəti arabir saniyədə 18-23 metr olacaq. Çaylarda sululuğun artacağı ehtimal edilir.

## ELAN

İmranov İlqar Müşviq oğluna məxsus Xətai rayonu, Ağ-şəhər, Qarabağ atları meydanı, blok 2, mərtəbə 3, mən. 24 ünvanına verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**